# عاشیق گؤردویون چاغیرار




عاشیق

سلجوق شهبازی

بسم الله الرحمن الرحیم

# عاشق سلجوق شهبازی



# عاشق گؤردویون چاغیرار

مؤلف
عاشق: کوثرعلی شهبازی
( سلجوق )

# عاشق گؤردویون چاغیرار


| | |
|---|---|
| سرشناسه | : عاشق سلجوق شهبازی۱۳۴۱ |
| عنوان و نام پدیدآور | : عاشق گوردویون چاغیرار/ کوثرعلی شهبازی(سلجوق). |
| مشخصات نشر | : تهران: پردیس دانش، ۱۳۹۲. |
| مشخصات ظاهری | : ۱۹۰ ص: مصور (بخشی رنگی) |
| ـابک | :978-600-300-094-0 : |
| وضعیت فهرست نویسی | : فیپا |
| یادداشت | : ترکی. |
| خط | : فارسی و لاتین... |
| موضوع | : شعر ترکی آذربایجان – قرن ۱۴ |
| رده بندی کنگره | : PL ۳۱۴ / ش ۸۸۵ ع ۲۴ ۱۳۹۲ |
| رده بندی دیویی | : ۸۹۴ /۳۶۱۱ |
| شماره کتابشناسی ملی | : ۳۴۰۸۰۷۴ |



**www. Ashiqshahbazi.blogfa.com**
**E- mail:ashiq_shahbazi@yahoo.com**

## کتابین ایچینده‌کی‌لر ( فهرست )


| ردیف | اثرین آدی | ردیف | اثرین آدی | ردیف | اثرین آدی |
|---|---|---|---|---|---|
| ۶ | مقدمه | ۳۹ | خانلارین | ۷۱ | گؤتوررم |
| ۸ | **دیوان لار** | ۴۰ | دهقان فداکار | ۷۳ | او یئرلرده‌دی |
| ۹ | یارادان کمک | ۴۱ | قربانی‌یام من | ۷۴ | ظلیم خان |
| ۱۰ | نه وارکی | ۴۲ | سازیم | ۷۵ | قافیه وار |
| ۱۱ | انسانسان اگر | ۴۳ | سؤزه حسرتم | ۷۶ | دئیشمه |
| ۱۲ | سلطان گئدیب | ۴۴ | سؤز بئله اولدو | ۷۸ | شاعره قیز |
| ۱۳ | قالمیشام | ۴۵ | دوز کیشی لرده | ۷۹ | **گاراییلالار** |
| ۱۴ | اولسون | ۴۶ | آلله آلله | ۸۰ | آختاریرام |
| ۱۵ | حقیقت دن نشان | ۴۷ | قاپی وار | ۸۱ | دنیا |
| ۱۶ | **قوشمالار** | ۴۸ | عسگره قربان | ۸۲ | اولسون |
| ۱۷ | داستان اوغلوم | ۴۹ | ساز دیه‌جکدی | ۸۳ | اوره‌یمده‌دی |
| ۱۸ | تجنیس | ۵۰ | نه‌تله‌سیرسن | ۸۴ | داریخمیشام |
| ۱۹ | او یارا منی | ۵۱ | گلیبدی | ۸۵ | قربان اولوم |
| ۲۰ | گلدی قایتدی | ۵۲ | قفیل بند دؤردو نه | ۸۶ | قارا گؤز |
| ۲۱ | تفنگ | ۵۴ | جئیران | ۸۷ | لعل گتیره‌رم |
| ۲۲ | قاغا | ۵۵ | حسن میرزا | ۸۸ | دوز ایتیریدیز |
| ۲۳ | حربه – زوربا | ۵۶ | یاشامیشام | ۸۹ | گؤندرییدی |
| ۲۴ | جواب سلمان قاضی | ۵۷ | بئشه‌بئش گلیر | ۹۰ | حاکیملر |
| ۲۵ | دانش سلمان قاضی | ۵۸ | باخ آ دیلبریم | ۹۱ | ریز علی |
| ۲۶ | جواب شهبازی | ۵۹ | آنا قوجالیر | ۹۲ | یارا دونیا |
| ۲۷ | قارا قورخو واقف | ۶۰ | قربانام آنا | ۹۳ | یاد ائیله‌دیم |
| ۲۷ | واقفه جواب | ۶۱ | یاراشمیر | ۹۴ | **مخمّس‌لر** |
| ۲۸ | واقفدن جواب | ۶۲ | ساز ساغلیغینا | ۹۵ | قوتاز بی |
| ۲۹ | لغمان گؤیچه لی | ۶۳ | هاردادی | ۹۶ | بیزیم |
| ۳۰ | ناشی یاندریب | ۶۴ | مندن | | |
| ۳۱ | منی | ۶۵ | نئچه یاشی وار | | |
| ۳۲ | آی کؤچه‌رلر | ۶۶ | قفیل بند | | |
| ۳۳ | قاداسین آلیم | ۶۷ | توز دومانا قاریشدی | | |
| ۳۴ | جانیم ظلیم خان | ۶۸ | سؤز آی کؤرپه‌لر | | |
| ۳۵ | بیری انسان اولور | ۶۹ | اولایدی | | |
| ۳۶ | آی یولداش | ۷۰ | اعتباری وار | | |
| ۳۷ | گمیلر گرک | | | | |
| ۳۸ | دینله ین | | | | |



## موسی

## نبی اوغلو

**آذربایجان عاشقلار بیرلی‌نین کاتیبی، "اوزان دنیاسی" ژورنالی‌نین باش رئداکتورو**

سلجوق شهبازی‌نی استاد عاشق کیمی تانیسام دا، شعر یارادجیلیغی‌ایله اوقدرده یاخیندان تانیش دئیلدیم. داها دوغروسو، ایندییه‌دک بیر نئچه شعرینی اوخوموشدوم. "عاشق گؤردویون چاغیرار" کتابین ال یازماسینی اوخویاندان سونرا ایسه بیر یارادی‌جی عاشق کیمی اونا رغبت داهادا آرتدی. کیمدیر عاشق سلجوق شهبازی؟ بو سوالین جوابینی ائله اونون یارادیجی‌لیغیندا تاپماغ ممکن‌دور. عاشغین اؤزونون دئدی کیمی، میلیون-میلیون شاهن، سلطانین گلیب-گئتدیی بو قوجا دنیادا عاشغلیغین کشیینده دورور. دده قورقود شهرتیم، شانیمدی دئین عاشق، اونون دوعالارینی اؤزونه درمان سایر، داستانلاری جانیمدی دئیر."آیاق قویدوم بابالارین ایزینه" دئیب صنعت آدلی بؤیوک بیر یولون یولچوسو و "تپه‌دن دیرناغا آذربایجان" اولان شهبازی قوپوزلارین حیمی، میزرابی، پرده‌سی و سیمیدیر:

من عاشغام ساز آتامدی سؤز آنام
ساز سینه مده سؤز دیلیمده نیشانام
تپه دن دیـــــــرناغا آذربایجانام
فخرائیلیرم آذربــــــایجان اوغلویام.

ساز تاریخیم، کئچمیشیم، اعتباریمدی، انسانلیق زیروه‌سی، حقیقت سسی، حققین، عدالتین یولودو، حکمتله دولودو دئین استاد قورورلا دئیر کی:

ساز کیمی بیر ائلچی بیر بایراق هانی؟
یاشیب ، یاشادیر آذربـــــــــــایجانی!

هر زمان استاد ادب-ارکانی‌نی، عاشقلیغین قایدا-قانونو قورویوب ساخلایان سلجوق شهبازی اوخوجولارا تقدیم اولونان "عاشق گؤردویون چاغیرار" کتابندادا بونا عمل ائدیر. کتابی دیوانلارایله باشلایر، قوشما، تجنیس، گرایلی‌ایله داوام ائدیر، مخمسله بیتیریر. بعلی عاشقلیقدا استاد یولونو گؤزله‌ین، عنعنه‌نی قورویان سلجوق شهبازی شعر یارادیجی‌لیغیندادا بونا عمل ائدیر. و سبوت ائدیرکی، سؤزون اصل معناسیندا کلاسیک استاد عاشقلاریمیزین یولونو لیاقتله داوام ائتدیریر، عاشق شعری‌نین مختلف فرمالاریندا شعر یازا بیلیر. اینانیرام کی استاد عاشق کیمی میلیونلارین رغبتینی قازانان عاشق شهبازی بو کتاب‌ایله-ده کؤنوللری فتح ائدجک، اوخوجو محبتی قازاناجاق. بو گون عاشق شهبازی یارادیجی‌لیغینین چوخ محصول‌دار دؤورونو یاشیر. هئچ شبهه‌سیز، ایستر ایفاچیلیقدا، هاواجاتدا، ایسترسه‌ده شعر یارادیجی‌لیغیندا بوندان سونرادا اؤز سؤزونو دئیه‌جک، بنزرسیز ایفالاری، یئنی-یئنی شعرلری‌ایله بیزلری چوخ سئویندیره‌جک.
استاد صنعتکاریمیزا یارادیجی‌لیغیندا اوغورلار، محکم جان ساغلیغی، و ساز عمرو آرزولولورام.

# دیوان لار



## یارادان کمک

ای بیرآلله سن نن غیری یــوخدو یارادان کمک.
تاپدیاجاخ باشیمیزدان وئـــــرسه بیر انسان کمک.
هـــر بیر کسین اؤز دینی وار اؤز مسلکی اؤز یولو
من حقیقت عــــــــاشغیام آلارام حاقدان کمک.

بیــــــــر آرزیـم وار اولو تانریم گئدەم آسمان‌لارا
سندن باشقا کیم وئـــــــریبدی حکمو سلیمان‌لارا
حلاک اولسام آتش‌لره غــــــرق اولسام عمان‌لارا
ایستەمەرەم یارانمیشدان سلطان‌دا ن خــان‌دان کمک.

یئراوزونده هئچ گؤزوم یــوخ یاهو- یـــــــاهو آجیام
بــــــــــــاش ایمیشم وارلیغینا نه وئرسه آلاجیام
نه منصورام نده شمسم، بیــــــــــر افتاده خوجایام
یازیق سلجوق شهبازی یا قـــــــادر سبحان کمک.

## نه وارکی

یار- یولداشی ساحمانلا سئچ, ایکی اوزه نه وارکی.
آرا - اختار ایگید دوست تـاپ, شئیت بازا نه وارکی.
سن ائویندا مــــــن ائویمده, آییق- ساییق دولانساخ،
بـــــاش شهر ده باش کسیلر, آخی بیزه نه وارکی.

بشرین دوزلوگونده دی, هــــــرلذتی هــــــر تامی,
اونــــــوتما وژدانی دوستوم, بیـــرسحر بیرآخشامی,
هــــــــــــرکوچه ده هربازاردا, یوخلویارلار آدامی,
سانماکی خلق یـــــــوخودادی, آیخ گؤزه نه وار کی.

عــــــاشق سلجوق شهبازی‌یم, چوخ مطلبه اذبـــرم,
علسگره تای گلمیشم, قــــــــــــــربانیه قدەره م,
سؤزلـــــــــــریمده حقیقت وار, نه هدەرم - پدەره م,
اوردان-بوردان، آدداخ-بودداخ, یونکول سؤزه نه وارکی.

# انسانسان اگر

گـــــــؤر بابالار نه لر دئمیش عارف انسانسان اگر.
چوخدا منم - منم دئمه آز چــــــــــوخ قانانسان اگر.
اگـــــــــــــــر زمـــان ده یشیلیب زمانلا گئتمه لیسن
هانسی سلطان خان اوغلوسان هانسی چوبان سان اگر.

بیلمه‌لی سن عموربویو نـــــــه امکانــــــلار وار سنه
یـــــــــــــاراداان آزاد یارادیب وئریب اختیار سنه
یامانیلغا گلمه ییسن یاخشی لیخ چـــــــــــاتار سنه
وقت کئچه جک بـــرق کیمی دوروب دایانسان اگــر.

یـــــاشاماغین سیـــــرّی نئدیر بیر - بیر اؤیره‌نمه‌لی سن
منم دئسن اؤیـــــــــــــــره‌نمه سن دیوانه‌سن ده لـــی سن
گـــونده بیرسؤز اویره‌نمه سن یادداشین گوله‌لـــــی سن
شهبازی‌دن اینجیمزسن اؤزونه یـــــــــــــانسان اگر.

## شاه گلیب سلطان گئدیب

بـودنیایا میلیون- میلیون شــــاه گلیب سلطان گئدیب.
اللرینده اولان قــــــدرت شهرت گئدیب شان گئدیب.
نئچه اسکندر ایله نیب منم دئیب دنیـــــــــــــادا
جمشید کیـــمی پـــــــــادشاهلار خیلی سلیمان گئدیب.

چـــــــوخ اولوبدور بو دنیانین نمرودو فرعونلاری
یــــــــارادانا اوخ آتیبلار اوستون وورماییب تاری
بیـــر دفعه ده مات اولمایب کیش وئریب شاهماتلاری
سون منزیله چالا- چالا لوت گئدیب عریان گئدیب.

حکمدارلار گلیب گئدیب کلله دن مینـــــــــاره سـی
گـــــــون چیخان دان گون باتانا قوشونو سرکردسی
ویـــــران اولوب تاج و تختی یوخدو بیر نشانه سی
شهبازی ده بئله گـــؤروب یازیب بیر دیوان گئدیب.

## قالمیشام

دون یوخودا طلب اولان حکمه روان اولموشام.
اوزه‌ریمه در آچیلیب شــــــاها مهمان قــالمیشام.
استــا - شاگـــــرد مقامندا اوتورموشوق دیز- دیزه
اؤیــــــــــردیبدی اوچ گارایلی بیر دیوانی چالمیشام.

گـــــــــــــرکدی بو دؤرد هاوادا استادیمنان آد قالا
مــــــراد حاقدان حاصل اولا اساسلی اسناد قالا
یــــا هو دئدیم حق ائشیتدی او قویماز ایراد قالا
صراطی صافلار ایزیله دوز ارکـــــــــانا دالمیشام.

شهبازی‌نین دیوانی‌سی گرایلی‌سی حـــــــق دیوان
مــــــرشیدی‌مین امضا سیلا بــــــدرلنمیش آی نشان
خئیر گــــــؤرسون هر دؤردونو هم چالان هم چالمیان
بــــــــو دؤردلرده ابجدینن خالی - خالا سالمیشام.

## اولسون

سازی حرمتدن سالنین، سونو حـــــرمتسیز اولسون.
الی بوم- بوش جیبی پولسوز، واردان دولتسیز اولسون.
حـــــــــــکمراندی پادشاهدی، گـــوونمه‌سین تاختینا،
تاختدا چیخاردان صاحبکار، اونو قـــدرتسیز اولسون.

نیتینده اســاس تــــــوتوب، مثله‌نـــــــــی سیلمسین،
یئـــرلی – بیرلی خانمانلی، هئچ وقت اوزو گــولمه‌سین،
ائله یئـــــــــــــردن قلینج دیسین هئچ سبببن بیلمه‌سین،
هاردان سینیب-هاردان چیخیب، سیردن-صفتسیز اولسون.

شهبازی‌یم من بیلیرم، ســــــــــــازدا اولان قدرتی،
او تـــــــــــرکلرین بایراغیدی، اتحادی وحدتی،
سازدا آنا لایلاسی وار، آنـــــــــا - باجی اصمتی،
او وارلیغا کج باخانی، تــــــاریم اصمتسیز اولسون.

## حقیقتدن دانشان

شاعر"سلمان" چوخ اولوبدو یئردن-گؤیدن دانیشان.
هاشا اوزدن معرفتسیز، معـــــــــرفتدن دانشان.
کان تانماز مکان بیلمز، لامکاندان خـــرجلی‌یه ر،
قـــــارا پولا ایمان ساتب، شـــــرافتدن دانشان.

نئجه دئیم من نئجی یه‌م، ســؤزومه شک ائلیره‌م.
گؤره- گؤره بعض عملی، گـؤزومه شک ائلیره‌م.
دئسه‌م دوزم ایانمیرام، اؤزومه شک ائلیـــــره‌م.
حقیقته عمـــــــــــل ائتمیر ، حقیقتدن دانشان.

اوتـــوز ایلدیر درس وئـریره‌م، اول کتابوالکریمی،
ایکی ملک ساغ سولومدا، یـــازیر خیر- شریمی،
نه بیر پــــــــولا، نه مقاما، ساتمارام هنریمی،
ازل قـــورقود بابام اولوب بو صنعتدن دانشان.

شهبازی هئچ آواندا یـــوخ، تـــرسه دولاندی دنیا،
نه سازلی‌دی- نه سؤزلودو، کـــهنه پـــالاندی دنیا.
منده بیراللی- آلتمیش ایل، دئدیم یـــالاندی دنیا،
لاغا قویوب باش بـــولادی مال- دولتدن دانشان.

# قوشمالار



# داستان اوغلویام

عـــــاشقلیقین کئشیگینده دورموشام
آلیشیب اودونـــــــا یانان اوغلـــویام.
او قـــــورروغا تیپله نی تــــــالارام
هالای پوزان توپ داغیدان اوغلویام.
من عاشغام ساز آتامدی سؤز آنام
ساز سینه مده سؤز دیلیمده نشانام
تپه دن دیـــــــرناغا آذربایجانام
فخرائیلیرم آذربـــــــایجان اوغلویام.
دده قورقود شهرتایمدی شانیمدی
دوعـالاری تسکینیم درمـــانیمدی
قـــورویارام داستانلارین جانیمدی
دانیشیغ اوغلویام داستان اوغلویام.
سینه گـــــرّه م لاف ایلین سؤزونه
اؤلـــومدوسه دیك باخارام گؤزونه
آیــــــاخ قویدوم بابالارین ایزینه
بو کاروان‌دا بیـــر بازرگان اوغلویام.
"شهبازی یم" قــوپوزلارین هیمـی یم
مضرابیام پــــــــرده سیم سیمی یم
مــن "آغ عاشیق" آللە وئردی کیمی یم
(شاه یوخو) هاواسین چالان اوغلویام

# تجنیس

ییغی‌لیب عــــــــاشقلار، ســؤز استادلاری
تجنیسدن ،جیناسدان نه یــــــــازا یازدی.
سؤزلـــــــــــر سینه لرده دالغا ووراندا
بـــــاخیب احتیاجا، نیازا یــــــــازدی.

آغ ساقّالّیق بیلیگه دی یـــــــــــاشا دی؟
ائل شـــــــــاعری یازار، ائلی یاشا دی
شـــــــــــاعرده وار طبیعتده یــاشادی
اما نــــــــه پاییزا نــــه یـــــازا یازدی.

عاشق قارداش سؤزده چالخان، سؤزده ارین
پـــــــــــــارچالاما شهبازی نین سؤزلرین
کلمه دریـــــــــن ، معنا دریــــن ، سؤز دریــن
نــــــاشی یا دئدیلـــــر نــه یاز آ یــــازدی.

## اویاره منی

حلال مشکلات فـــــاتح خیبر
گل قویما سرگردان آواره منی.
توت الیمدن قالدیر ای شاه نجف
ســــــالما نظریندن کناره منی.

بــــاتیبدی گونه شیم سؤنوبدو شمیم
یول آزیب کاروانیم غرق اولوب گمیم
عـــــــالمی سؤزلریم اؤزومو غمیم
آه چکسم یــــــــاندیرار دوباره منی.

یـازیخ شهبازی یم گل یئتیش دادا
نـــــابلد صحرادا دوشموشم اودا
نه ســـاحل گؤرونور نده بیر آدا
قـــــــویما بو دالغالار آپاره منی.

## گلدی قاییتّدی

دون گئجه آنامی یوخومدا گـــؤردوم
بیـــــر آن قـــاپی‌میزا گلدی قـــاییتّدی.
مــزاردان بئش دقیقه وقت آلمیشدی او
اؤزون دردی ســــــره سالدی قاییتّدی.

آشمیشدی داغلاردان کئچمیشدی داشدان
ییخیلیب دورمــوشدو اوستو بـــــاشی قان
چـــالدی قاپی میزی تـــــا من دورونجان
وقت قـــــــــاپدا تمام دولدو قاییتّدی.

او زمــــــــان قالخدیم کی دؤندو کوچه‌نی
قــــــونشومنان سوروشدوم گلیب گئدنی
دئدی آنـــــــــان ایدی سوروشدو سنی
شهبازی قـــــــاپوزو چــــــالدی قاییتّدی.

## تفنگ

مـن‌ده تفنگ آلیب چیخدیم اویلاغا
منیم اووم هـــــارا سنون‌کو هارا.
ســاچمانین یئرینه دولـدوردوم دنی
آتدیم قـــانادلاری سینان قوشلارا
منیم اووم هـــــارا سنون‌کو هارا.

من تفنگ آلـدیم‌کی صیاد آلماسین
صلاح ساتانلاردا صلاح قالماسین
قـوشلار هاوالانسین للک سالماسین
تفنگ آلمادیــــــم‌کی چیخام شکارا
منیم اووم هـــــارا سنون‌کو هارا.

بیزارام - بیزارام چــــاخماغ چاخانان
مــــــاشا تــرپدندن قیا بـــاخانان
آی شهبازی بـــاخ بو تفنگ چیخاندان
چــــوخ قلبی کؤیرکلر گلیبلر زارا
منیم اووم هـــــارا سنون‌کو هارا.

## قاغا

هـــــــامی چالا بیلمز زمانین سازین
هــــــر تئلینده مین بیر اویون وار قاغا.
بسته کاری بللی چـــــــــــالانی بللی
دینله‌یه‌نی اولوب گـــــــناهکار قـــاغا.

نــــــــه ساتیرسا ساتسین نه آلیر آلسین
سن آچما بو سیرّی قوی باغلی قالسین
بـــــــاخ نئجه ککله ییب ائله ده چالسین
دیندیرسن کـوسه‌جک بسته کـــــار قاغا.

شهبـــــــــــازی، اله نیب کئچدیم الکدن
چـــــوخ زاوال گؤرموشم فتنه کلکدن
بـــــــــــــی وفا دنیادان چرخ فلکدن
گـــــــــؤرمه‌دیم صداقت، اعتبار قاغا.

## حربه- زوربا

## عاشق سلجوق شهبازی



## "میدانا گلسین"

اوتایلی- بـــــــوتایلی آذربایجاندا
عــــاشغا توخونان میدانا گلسین.
هـــاواجات دویورسا چالا بیلیرسه
ارخـــــایندی سؤزه داستانا گلسین.

هـــاراجن گئدجک، بو صنعت بئله
حـــرمتدن سالیرلار لاپ گله- گله
چوخ نادان صنعتسیز ساز آلیب اله
امتحان وئـــــرمیه ایرانا گلسین.

چکیم امتحانا ســـــــــالیم درینه
آتش ســــــــــالیم قانادینا پرینه
شهبـــازی، بیر تیریش گلسین سرینه
قـــایدیب اؤونه دیـــــوانا گلسین.

## جواب سلمان قاضی



شاعر سلمان قاضی



عاشق سلجوق شهبازی

حربه - زوربا دئمه عاشق شهبازی
دؤنـــــــــرم توفانا دومانا گللم.
صنعت میداننیندا جوشوب- داشارام
سالارام سیزلەری گــــــومانا گللم.

صنعتیندە آغیر اوتور بـــــاتمان گل
منم- منم دئسن تـــــاپارسان انگل
هئچ کسه کج باخما هر کسنن تن گل
یوخسا درس دئمەیه ایــــــرانا گللم.

امتحـــــان چتیندی چکه بیلمزسن
عاشقسان شـــاعرله اکه بیلمزسن
سلمانین قــــولونو بوکه بیلمزسن
کئچەرم آرازی اویــــــــانا گللم.

شاعر سلمان، باخ سؤزوون گوجونه،
گلمەیه واروندو بیر امکـــان دانیش.
چـــوخلارین یوخودان اویاتمیشام من.
سن یوخو گؤرورسن یوخودان دانیش.

صنعتده قــــارتالام بیلیرسنمی سن؟
نئچه شـــــاعرلری باغلامیشام من.
سنه رحمیم گلیـــــر، کئچیرم اوزدن
گـؤستر صنعتیندن ، بیـر نشان دانیش.

شهبـــازی‌نین سؤزون سالما گومانا،
نقطه‌نی، وئـــــرگولو، آتبسان یـــانا،
آداسان اؤزونو قـــــــــــاتما عمانا،
سن حله اوشــــاقسان گئت اوزان دانیش.

## سلمان قاضی دانیش



**شاعر**
**سلمان**
**قاضی**
**دانیش**

السلام الیک عـــــــــــــــــاشق شهبازی
آزینـی بیلیرم چـــــــــــوخوندان دانیش.
یوخسا صنعت‌ایندن چوخ رازی سان سن؟
سن منه آتدیغین اوخـــــــوندان دانیش.

قارتالدان یوکسکده اوچـــان قوشدا وار
زمرّود، سیمرغدو توتوبدو قـــــرار
شاعر قارشی‌سیندا قالارسان نـــــاچار
یاپیشار بـــــوراخماز یاخاندان دانیش.

خـــــوشوم گلیر صنعت‌ایندن اؤزوندن
ائله یـــازکی خوشوم گلسین سؤزوندن
من قـــــورخمارام آلووندان کؤزوندن
سلمانا گـــــــورلایب چاخاندان دانیش.

## شرافتدن دانشان

شاعر"سلمان" چوخ اولوبدو، یئردن-گؤیدن دانیشان.
هاشا اوزدن معرفتسیز، معـــــــرفتدن دانشان.
کان تانماز مکان بیلمز، لامکاندان خـرجلی‌یه ر،
قـــــارا پولا ایمان ساتب، شـــــرافتدن دانشان.

نئجه دئیم من نئجی یه‌م، ســؤزومه شک ائلیره‌م.
گؤره- گؤره بعض عملی، گـؤزومه شک ائلیره‌م.
دئسه‌م دوزم اینانمیرام، اؤزومه شک ائلیـــــره‌م.
حقیقته عمـــــــــل ائتمیر ، حقیقتدن دانشان.

اوتــوز ایلدیر درس وئـریره‌م، اول کتابوالکریمی،
ایکی ملک ساغ سولومدا، یــازیر خیر- شریمی،
نه بیر پــــــــولا، نه مقاما، ساتمارام هنریمی،
ازل قــورقود بابام اولوب بو صنعتدن دانشان.

شهبازی هئچ آواندا یــوخ، تــرسه دولاندی دنیا،
نه سازلی‌دی- نه سؤزلودو، کـــهنه پـــالاندی دنیا.
منده بیراللی- آلتمیش ایل، دئدیم یـــالاندی دنیا،
لاغا قویوب باش بـولادی مال- دولتدن دانشان.

## قارا – قورخو واقف






### شاعر واقف هجران

چـــالخالانما داغدان آخان چای کیمی،
قــــــووشار عمانا عنوان‌نین ایتر.
آچـــــارام اؤنوندا سؤز معدنی‌می،
یازیب – یاراتماغا گومانون ایتر.

قران‌دان آچارام سفره‌می هر آن،
دؤرد گوهر ایچینده ایتیب باتارسان،
بیر درده ســالارام تاپیلماز درمان،
الده سازون سوسار، کمانون ایتر.

آی هجران، قارتالین داغدی مسکنی،
درد سئویر دیه‌سن دردی چکنـــی،
قانانلا یاری بؤل، هر بیر تیکه‌نی،
یـــوخسا آلله سئومز امان‌نین ایتر.

### عاشق سلجوق شهبازی

"واقف هجران" گؤزل یازیب یارادان،
دوستومسان نه دئیم نه یـــازیم استاد.
او اوچ بند یــازدیغیم قارا- قورخودا،
نـــــادانـدی مقصدیم ، قره ضیم استاد.

سن منیم سازیم سان سؤزوم سن آخی،
اؤزومدن ایــــره لی اؤزوم سن آخی،
دانیشان دیلیمسن گـــؤزوم سن آخی،
هــــای- هــــارای نفسیم آوازیم استاد.

شهبازی نین مودروک ساین سؤزلرین،
بو صنعتده بــــــورجو ندیر بیزلرین،
آی واقف ایسته دیم خبـــــرسیزلرین،
بیر قــــولاغین بورسون بو سازیم استاد.

## عاشق شهبازی‌نین "گلسین" شعری‌نه جواب




# شاعر واقف هجران

### گللم

دورّ  سئچن صرافام  عـاشق شهبازی،
گللم دعوت‌اینه شـــــــاهانه گللم.
اقبالیم گتیرسه ایش تـــاراز اولسا،
دوشمه‌رم شوبحه‌یه گــــومانا گللم.

آتـــــــالار سؤزو وار دئیبلر، هاشا
صنعت‌ده نادان‌لار چیخمایب باشا،
ساخلاسان کؤنلوندا منه بیر گـوشه،
جان قــــــربان ائیلرم قانانا گللم.

"واقف هجران" دوست یولوندا وار اولار،
دردین آزالتماغـــــــــا سبّکار اولار،
استاد قیش فصلی‌دی یولار قار اولار،
ایسته‌سنکی دوشم بـــــــــورانا، گللم.

# حربه – زربا





## عاشق سلجوق شهبازی

اوتایلی- بـــــــوتایلی آذربایجاندا
عـــــاشغا توخونان میدانا گلسین.
هـــاواجات دویورسا چالا بیلیرسه
ارخــــایندی سؤزه داستانا گلسین.

هـــاراجن گئدجک، بو صنعت بئله
حـــرمتدن سالیرلار لاپ گله- گله
چوخ نادان صنعتسیز ساز آلیب اله
امتحان وئــــرمیه ایرانا گلسین.

چکیم امتحانا ســـــــالیم درینه
آتش ســـــــالیم قانادینا پرینه
شهبـــازی، بیر تیریش گلسین سرینه
قـــایدیب اؤونه دیــــوانا گلسین.

## شاعر لغمان گؤیچه لی

عاشقلیق علمایندن دم ووران عــاشق،
علسگره چـــــــــاتماز امانا گلسین.
صنعتین اوجـــاغی گؤیچه‌دی استاد،
گؤیچه‌لی نئیله‌یر ایــــــرانا گلسین.

خــــــــوشا گلمه‌سده سؤیلرم دوزو،
قـــــانا اؤز ایبینی انسان‌نین اؤزو،
حـــرمتدن ســـالانلار صنعتی سؤزو،
قویسون ســـازی یئره وجدانا گلسین.

چیخیبدی چوخ تزه عـاشق، آی استاد،
نئچه یویولمامیش قـــاشیق، آی استاد،
تزه نه یازیبسان عـــــاشق، آی استاد،
گؤندر شاعر حـــاجی لغمانا گلسین.

## ناشی یاندیریب

دنیـــــــــــانین. ازلدن بئلدی ایشی
داغلاری پوسگوردوب داشی یاندیریب.
وارلینین بـــاختینا اؤزو قـــول چکیب
یـــوخسولدا کیپریی - قاشی یاندیریب.

دنیانی یـــــــاندیرمیر نه آلو نه کؤز
نه قورخو کار ائدر نه کسرلی سؤز
هـــــــر امرینه قاتلان هر فئلینه دؤز
قـــــــورونون اودونا یاشی یاندیریب.

شهبازی دنیاکی گـــــــــؤزونو یومار
نه عالم تـــــــــانیار نده صنعتکار
آیق اول، ائشیدهر یـــــــاخوو توتار
هـــــرنه قانان یانب ناشی یاندیریب

## منی

طفل ایکن نه لـــــر چکدیم نه لر ای
نـــــــــکرلر جرگینه قاتدیلار منی.
صاباح آچیلا ندان شـــــــر قاریشانا
بئش قــورو چؤره گه ساتدیلا منی.

کــــــوله گؤندریلدیم کولادا گئتدیم
بلی قـــــربان دئدیم دولادا گئتدیم
ائنیش یـوخوش آشدیم یوللادا گئتدیم
پیاده قـــــــویدولار آتلی‌لار منی.

پوللولار پول ایلا دؤیدو ســـریمدن
تـــــازیانه زول چیخارتدی دریمدن
شهبازی‌یام هئچ دینمدیم شـــریمدن
بیلمزه نادانا قـــــــــاتدیلار منی.

## آی کؤچه‌ری‌لر

دنیا قـــالاسیدی انسان کـــــــؤچه‌ری
کیم وقت سیز گئتمه سین آی کؤچه‌ری‌لر.
امان‌سیز انصاف‌سیز بـــــو قوجا دنیا
یـــــــاخـــازی توتماسین آی کؤچه‌ری‌لر.

فسونکاردی هـــــــرتورپاغی هرداشی
بیلینمیر تـــــــاریخی نئچه دی یاشی
بـــــــوقاری قومارباز بو لیلاجباشی
سیزی آللاتماسین آی کـــــؤچه‌ری‌لر.

شهبازی قوی بیلسین بگ ده نکرده
دنیا آپـــــــــاردیغین گتیرمز بیرده
ائله بیر یـــول توتون قیسا عمورده
زحمت‌ایز ایتمه‌سین آی کـــؤچه‌ری‌لر.

## قاداسین آلیم

کیشی وار آنادان مـــرد دوغولوبدو
بئله مـــــــــردانه نین قاداسین آلیم.
مرد آنا اولمایا مرد کیشی اولماز
بئله مــــــــرد آنانین قـاداسین آلیم.

مــــــردلرین ائویندن سفره بوکولمز
ائـــوی گل- گئد اولار آیاق کسیلمز
تیکه نی بیلمه ین داغـــــی دا بیلمز
دوز چـــؤرک قانانین قاداسین آلیم.

دوستلوق باشا وورماز القارین دانان
نـــــه اونا بئل باغلا نده آرخالان
آی شهبازی مــــردین باشین اوجالدان
عصمتلی جــــــانانین قاداسین آلیم.

بیر مثال‌دی سـؤزله رون



# خالق شاعری ظلم خان یعقوب

ائلی‌مین شـــــاعری، اولو ظلم خان
کؤنلومون ساراپین آلدی سؤزله رون.
گـــاراپلین واقیفی قوشمان وورغونو
سهندی یـــادیما سالدی سؤزله رون.

هـــر شعروون بیر مصراسی بیر آیه
کاروان– کـاروان کـؤچله نیرلر منایه
چیخدی کتاب‌لاردان قــالخدی سینایا
انینجی تک دوزولدو قالدی سؤزله رون.

عــــــاشق شهبازی‌یم بیلیرم منده
تــــانریم الهامینی جمع ائدیب سنده
بـــوتون قــایالارین زیروه له ریندە
حک ائتمه لی بیر مثال‌دی ســؤزله رون.

## بیری اینسان اولور

او خلقتدن بـــــری آ دلــی کؤنلوم
هـــره ده بیرخصلت بیرنشان اولور.
بیـــرقاندان بیر سوتدن یارانانلارین
بیـری شریاراداان بیری انسان اولور.

آدام وار ائــو تیکن یـــاپیب یاراداان
صلحون زیروه سینه اولوب نـردبان
آدام وار شـــر یاخار کئچسن یانیندان
رویادا گــــــؤرنده هراسان اولور.

کیمیسی جــــــان آتیر آلچاق نیبته
کیمی سی قــــــــووشور ابد ییته
شهبازی نــه یــــازیم او بد طنیته
یــــــاراداان هامیا مهـــربان اولور.

## آی یولداش

عمرومون یـــارپاغی بیر بیر اوزولور
قـــوپور دوشور خزان اولور آی یولداش
دنه – دنه قـــــــــار اوتورور ساچیما
بئل بـــــوکولور کمان اولور آی یولداش.

آتـــــالار سؤزونو توتدوم ســــــــر- سری
ایندی هــــــــــا دینله رم یوخدو کســــــری
ساچیما قــــــــار- قیروو دوشندن بــــــری
اوخ–جان دئیه ن یار یان اولور آی یولداش.

شهبازینی نه تئز تـــــــــــــاپدی بـو یاغی
ســـــــــــارالدی گوللری سولدو یـــارپاغی
یـــادیما دوشنده جـــــــــــــــــوانلیق چاغی
بـــــاغریم باشی شان–شان اولور آی یولداش.

## گمیلر گرک

من من دئییب یاریم من ده اولمویان
کامل ایش دالیجا کامل ار گــــرک.
ایگیدی خطـردن کـؤهلن قــــورتارار
آغیر فــــــرماشلارا قـوجا نر گرک.

سندن باشچی اولماز چکیل دور کـنار
ائل اؤز ســرکرده سین آختارار تاپار
طـرلان اولان یئرده دولانماسین سار
میدان‌دارلیق ائدن پــــــر هنر گرک.

شهبازی دن یـان اول طبعی دوراندا
داغلار پوسگورنده باش قـــالدیراندا
دنیــــــــز لپه دؤیوب دالغا ووراندا
چکیب لنگر ســـــالا گمیلر گــرک.

## دينله يين

كوراوغلو غيرتلى تــرك اوولادلارى
شيمشك سسلى عــاشقلارى دينله يين.
بير- بير چاليب اوخوسونلار اوزانلار
تــــوكنمز دولتى وارى دينله يين.

فــــولكولور داستانلار چرچيوه سينده
باخين عـــــاشقلارا ساز سينه سينده
بوخلقين عـــــــادتى عنعنه سينده
دانيشيرام داستانــــــلارى دينله يين.

عـــاشق سخاوت ائشيت ميــرزانى
علسگر كـــــمال‌لى خان ظلم خانى
قـــــــدرت اسديدن آذربايجانى
ستـــــاردادا آرازبارى دينله يين.

ابولفضل خاطيرلير حسين جــــوانى
طالب محمودونان اكبر ايمـــــرانى
چنگيز بى ريادان نـــــورس ايمانى
شهبازيدن كـــــماندارى دينله يين.

## خان‌لارین

هـــــــر بیر جسارتین مالین دولتاین
یاراشیغین کتدلی وئـــــریب خان‌لارین.
ده یه رین ده یمه زین شانین شهـرتین
چــال پاپاغین کتدلی وئریب خان‌لارین.

دونن آبـــــــــاد ائدیب کندین اوباسین
بــــــو گون دولاندیریر او کرخاناسین
ناردان شـــــــرابینی قویون خاماسین
قاب قاجاغین کتدلی وئـریب خان‌لارین.

طالع ووروب بخت گتیـــــریب چلوون
اؤتــــوروب کؤهله نین چکمیر جلوون
آی شهبازی بـــــــوزارتماسین پلوون
بالین- یاغین کتدلی وئـــریب خان‌لارین.

# دهقان فداکار

۱۳۸۸
تهران
ارس باران
موسیقی
مرکزی



دهقان فداکار | عاشیق شهبازی | شهبازی‌نین حایات یولداشی

دهقان فـــداکار بیرایش گـــؤردو کی
تـــــاریخ بویو اؤلمزاولدو خـــواجوی.
دوشدو داستانــــــــلارا دبستانــلارا
دیـــری لیک قازاندی قالدی خواجوی.

گؤردو داغ تؤکولوب یول یولاغ داشدی
مین خیالا قالـــــــدی فکری قاریشدی
پئنجه یین الینده یـــــاندیردی قاشدی
قطارین قاباقین آلـــــــدی خواجوی.

ریـــزعلی درس وئردی بوتون جهانا
دنیانـــــــــی جلب ائتدی آذربـایجانا
شهبازی نـــــه یـــازیم بئله انسانا
مکتبی یـــــادیما سـالـدی خواجوی.

## قربانی‌یام من

یالانچی ساختاکار زنجان لی ( ه) (ج)
عهدین دوزایلقارین قـــــربانی یام من.
سن اولماسان ایگیتلره زاوال یــــوخ
سن سیز هــــر آنلارین قربانی یام من.

بیلیرسن فکـــــریمدن نه گلدی کئچدی؟
بیلمه سن عمروون هــــامسی هئچدی
هر کسین عملی اونونده بــــــورشدو
دوز یول توتانلارین قـــربانی یام من.

انسانــــــــــی ارنیندان تـــــانیرام والله
شهبازی نین سهوی اولمـــــــاز انشالله
قـــــــــولاغووا اوخونمویوب بسم الله
دیندار صنعتکارین قـــــــربانی یام من.

## سازیم

تـــــاریخیم کئچمیشیم هاییم هاراییم
بوتون سـرحدلرین پوللودور سازیم.
انسانلیق زیـــروه سی حقیقت سسی
حقین - عدالتین یــــولودو ســـــازیم.

ســـــاز سسینه زمان دورور دایانیر
اصلی ساچین یــــولور کرمده یانیر
آراز آشیب - داشیر کـــور چیمچالانیر
بیر باخ نه حکمتله دولودور سازیم.

سازکیمی بیر ائلچی بیر بایراغ هانی
یـــــــــاشاییب یاشادیر آذربایجانی
شهبازی نسیمی دمیرلر قــــــــــانی
بابکین کسیلمیش قــــــولودور سازیم.

## سؤزه حسرتم

آچ شکــر دیللری بال دوداخلاری،
حسرتم بیر شیرین سـؤزه حسرتم.
یـــــاشماغین آلتیندا پنهان ائتدیگین،
یاناغا حسرتــــــــــم اوزه حسرتم.

عشق آتش‌این قالانبدی جـــــــانیما
اود ووروب جسمیمه خـــــانمانما،
اوتــــــــانیرام نئجه دئییم خانیما،
او قلم قـــاشلارا گـــؤزه حسرتم.

شهبازی حسرتدی بیرجه گؤروشه،
لاله یـــــــــاناخلارا داهانا – دیشه،
او ازل ســـــاللانیب کئچن یئریشه،
باخیشا - گولوشه نـــــازا حسرتم.

## سؤز بئله اولدو

سنی گـؤره ن کیمی اؤزومدن اولدوم
قـــاشیم بئله اولدو گؤز بئله اولدو.
مـن بئله یـــازمازدیم بیلمیرم نییه
شعـــر بئله اولدو ســـؤز بئله اولدو.

آشــکار ائتدیم هـــارایمی سسیمی
اسدی اندامیمین لاخـــــلادی حیمی
آلیشدی دمیرچی کـــوره سی کیمی
آلـــــوو بئله اولدو کـؤز بئله اولدو.

یـــــازیخ شهبازی‌نی گتیردین دادا
اولموشـــام الیندن دوشگون افتادا
عــــــزرائیلدن بتر آی ملک زادا
سن کی جان اوزن سن اوز بئله اولدو.

## دوز کیشی لرده

قـــــان باغلیان شر یاتیردان کلمه لر
گئتدی صداقتلی دوز کیشی لـــــــرده.
کیشی لیک صفتی مــــــردانه لیک لر
ارییب ســـو اولور بعض کیشی لرده.

اولار قضاوتده دوغـــــرو یاپاردی
حــــــق- عدالت اؤز یئرینی تاپاردی
ائله رحمتیده اولار آپــــــــــاردی
میزانیدی کلمه – ســـــؤز کیشی لرده.

ساخلامادیق کیشی لــــرین حُـــرمتین
کسدی روزوموزون حــــــق برکتین
شهبازی گـــوزاران چوخ اولوب چتین
گئتدیب حلال چؤرک - دوز کیشی لرده.

## آلله - آلله

یـــــامان داریخیرام قلبیم دایانیر
آلیشیر سینه مده ســــــؤز آلله-آلله.
بیلمیرم کی گلیم یــــــادا گلمه یم
قــــــــارادی یانیندا اوز آلله–آلله.

اسیب تیتره میشم قارلی قیشیندا
بـــــــهار یاغیشیندا یاز یاغیشیندا
نـه سهو ائیله میشم داورانیشیمدا
چئویــــــریبسن مندن اوز آلله –آلله.

غملردن چاتیپدی دویونجا پـاییم
گــؤیلره اوجالیب هاراییم هاییم
بیلمرمکی یـازیم یادا یازماییم
یامان تــرسه گه لیر سؤز آلله–آلله.

نــاسازدی همده میم گؤیدن آسلانیب
شعریم سؤزوم قلبایم کیمی یاسلانیب
نه مدّتدی بـــــاغلی قالیب پاسلانیب
دورنــــا بوغاز تــاوار ساز آلله–آلله.

یازیق شهبازی‌دن توتمورسان سوراغ
اولما نظرایندن سالیبسان قیــــراغ
قارانلیغا دوشوب قالان یول- یولاغ
ایتیریر یوللاری گــــــؤز آلله –آلله.

## قاپی وار

قاپينان قـاپينين فــــــــــرقينه بير باخ
قــــــــاپی وار ايستيرم باغلادام آلله.
قـاپی وار هر صاباح گؤرمه‌سم اولمور،
قــــــاپی وار گؤرمه‌سم چوخ شادام آلله.

قـاپی وار دروازا مين نفر کئچه ر،
قــاپی وار آچيلار هردن بير تهر،
قــاپی وار شکردی قاپی وار زهر،
قــــــاپی وار نه اولار کاپادام آلله.

قــاپی وار آچيخدی مدام قوناخلی،
قــاپی وار ازلدن باغليدی باغلی،
قـاپی وار هميشه شعله‌لی چيراغلی،
قـاپــی وار کی دئير، فولادام آلله.

قــــــاپی وار مدينه – مکه درايدی،
قــــــاپی وار صاحبی ارنلر ايدی،
قـاپی وار تانرينين اؤز محضرايدی،
قــــــاپی وار ال گئتمير اوزادام آلله .

قاپيــــی وار شهبازی گؤزلـه‌مه امداد،
قاپـی وار کيشی سی آروادان آرواد،
قاپی وار قاچاخدی قوهوم- قونشو ياد،
قــــــــاپی وار تانيمير بير آدام آلله.

# عسگره قربان

آذربـــایجانی‌مین سرحدلـــرینی
قـورویان زابیته عسگره قربان.
جانلاریندان کئچن " مبارزلری"
یئتیرن تورپاغا مین کره قربان.

اود یوردومون قـارتالاری پیلودلار
سماسینی شاهین کیمی قـــورویار
یئرلی بیرلی حربی‌میزده کمکی وار
اونلاری یئتیرن ائللره قـــــربان

شهبازی اود یوردو شهرتیم شانیم
قیزیل قوشا بنزیر آذربــــــایجانیم.
قـــارا بــــــاغ دئیلن جنت مکانیم.
سنده خوجالیا تر تره قــــــربان.

## ساز دییه جکدی

خاطیرین اؤزوندن اینجه دی سنین ,
دیندیریب دانیشسام سؤز دیه جکدی.
دئسه م آشـــــکارلانما اینجیه جکسن,
دئمه‌سه‌م بــــــد نظر, گؤز دیه جکدی.

گـــؤزوم دوشوب گردنینده شاهمارا,
قلبیم پارا - پارا سیننده نــــــــــارا,
گـــــؤره سن آی اوزه بال دوداقلارا,
هانسی دوداق دییب اوز دیه جکدی.؟

مـــن سنون عشقینده تورا دوشموشم,
اعتـــــــراف ائیلیرم سهو ائیله میشم,
عـاشق شهبازی‌یم, چوخ گئج بیلمیشم,
منیمده دردیمه ســــــــاز دیه جکدی.

## نه تله سیرسن

بـــو عمر کاروانین آستا_آستا سور
ای قـــوجا ساربان نه تله سیرسن.
تانری‌نین امری ایله جـان آلان ملک
بیرگون آرتیق دایان نـــه تله سیرسن.

بیر امکان وئر بیرده گزیم داغلاری
چـــاییرلی دوزلری بوز بولاغلاری
گؤزو یاشلی قویما سن اوشاغلاری
حکمودار یـــــاراداان نه تله سیر سن.

اوغلوم حسین - سینام کسیگیم شـــادی
گـــــــؤرمه گه گلیرلر اولار یولدادی
یـــــــازیق شهبازی یه ائیله امدادی
بـــو ایشده بیر یوبان نه تله سیر سن.

## گلیبدی

ییغیلسین اوزانلار گلسین عـــــاشقلار
اود یـــوردونون خوش آوازی گلیبدی.
شیـــــرین لهجه سینده استاد محمودون
بـــــوزالقانین صحبت سازی گلیبدی.

گه‌لیشی ایله گتیریبدی ایـــــــمرانی
عـــــــاشق علسگری اکبر علخانی
آذافلی مـــکائیل صنعت لقمـــــانی
کئچیب کـــوردن خان آرازی گلیبدی.

گـــزدیر ساغلیغیندا ساغی بـــاده مئی
ساز گورولده کمان چاغلا، سیزلا نئی
مژده وئرین اوزانلارا مـــــژده هئی
چوخ باغلی سؤزله رین رازی گلیبدی.

سینه سینده داستانـــــــلاری گتیرن
اصلی خـــــــانی خان کرمه یئتیرن
بیــــــــر مصرادا قفل بندلـــر بیتیر ن
شهیازی نین ســـــــرافرازی گلیبدی.

## قفل بند

## دؤردونه؟




IONA/Photo:Soroush

| سوال دده قربانی‌دن | جواب عاشق سلجوق شهبازیدن |
| --- | --- |
| اون‌ایکی گـــؤزلین سئیرینه واردیـــم | اون ایکی گـؤزلـه منده وورغونام |
| گـؤزوم دوشدو گـــؤزللرین دؤردونه. | آخشام صاباح یالواریرام دؤردونه. |
| آلتی (س) بـــد عمل دیندیرمک اولمور | بعد عمل (س)لاردان تانری قوروسون |
| ایکی (س) مهـــربان اونون دؤردو نه؟ | ایکی صلواتدی ســـلام دؤردون. |
| اون‌ایکی‌سی بییر صحرادا یــــاتیبدی | اون ایکی آیلاردی نظام قورقو دوز |
| یاتیب‌دیسا خــــــــواب اؤونده یاتیبدی | صحراسی گئنیشدی گؤره‌بیلسه گـؤز |
| سگیزشئی وار بـــو دنیانــی توتوبدو | آیدی، گوندو، گئجه، گوندوز، حاققلی سؤز |
| آب ـآتش خـــــــاک - بـــادی دؤردونه؟ | قوسور یوخدو هئچ بیر زمان دؤردونه. |

## دؤردونه؟





IONA/Photo:Sorousl

سوال دده قربانی‌دن
جواب عاشق سلجوق شهبازیدن

قـــــــربانی سؤزلرین ائیله‌دی تمام
سنه کی خوش گلمز بو شیرین کلام.
سگیزشئی انسانا وئـــریلدی عنعام
عقل مرفت هوشدو کمال دؤردونه؟

شهبازی حـــق سؤزو ائیله‌مز تمام
حله بوندان سونرا چـوخ ائدر دوام
درک وصحت،عشق و جمالدیرعنعام
جواب وئردیم استادیمین دؤردونه.

## جیران

جیران قـــاچ بیر یئرده باشین دالـدالا
سؤزوم چوخ سادجه سؤزدئییل جیران.
عـــــاشقدان اینجی مه دؤنوب زمـــانا
هـــــر حمایئل اولان سازدئییل جیران.

داغلار اوداغلاردی یئـــرده او یئردی
چـــؤورولوب انسانین هر فردن فردی
قـــــــاتما نامردلره مرداوغلو مـــردی
امــــــا انصافسیزدا آزدئییل جیـــران.

سن ســـــــازا آللاندین او اوخون آتدی
اوخ سنه دیمه‌دی ایناما بـــــــــــاتدی
شهبـــــــــــازی بس منی نه‌لر آللاتدی؟
اونــــــو بیر شعرینده یـــاز دئیر جیران.

## حسن میرزا

سالام حسن میرزا ای عـــالم بابا
سنون تک عارفه اوز توتانام من.
پـــــــــایمی آلاندان شاه نجفدن
اؤلچولو بیچیلی دوز نشانام من.

عـــاشق اولوب حقیقتی سئچمیشم
یاهـــو دئیب دریاسیندان کئچمیشم
آلیشانـــــدا اصل مئیدن ایچمیشم
قـــویمازهئچ آتشه نـاره یانام من.

بیر هاوا یارادان عـاشق گزیرسن
اون هاوا، داستانلی، بیرعاشقام، من
تهرانـــــدا اولارام ، محلمده (کن)
منی تـــــاپا بیلسن سن دیه‌نم من.

## آز یاشامیشام

بـــــــــؤیوک خلق ایچینده تمیز آدایله
قیرخ بئش بایرام گؤروب یاز یاشامیشام.
آه نئینیم آنلاری آغیـــــــــــر گونلری
گؤتورسن بئش ایلدن آز یـــــــاشامیشام.

قلمدی ســـــــــازیمدی منیم داش- قاشیم
دیلیمین کـــــــــؤتگین یئییر بو باشیم
آ دوستلار تانیشلار آ یـــــار یولداشیم
نه کــــــــــی یاشامیشام ، دوز یاشامیشام.

آی آغام آی به ییم آی قـــــارداش باجی
عــــــــــاشق شهبازی‌یم دئییلم حــــاجی
باشیمدا عاشقلیق نیشانی تـــــــــــاجی
سینه مده صدفلی ســــــــــاز یاشامیشام.

## بئشه بئش گلیر

کؤنول اویما آییق - سـاییق اولـگونـان
یئرلی بیرلی ناحق حقّدان باش گلیر
یا دوز یـــارانماییب یـا زمان ایییب
ایــــــرینین بـاختینا بئشه بئش گلیر.

یـــالان اساس اولوب انسان سرینده
ال چـــــاتمیر صداقت قالیب د ریندہ
عملــــــر تـــرسه دی بعض‌ایلرینده
عـــادی انسانلارا سؤزو خوش گلیر.

شهبازی بیر زمان آچیبسانکی گـؤز
نـه بیر حیا واردی، نــــــه اوتانی اوز
اولسادا میلیارددا میلیوندا بیــــــر دوز
گئتمه‌میش یئــــرینه مین .... کش گلیر.

## باخ آ دیلبریم

کـوچه ده بـــازاردا گؤروشنمیریک
بـــاری پئنجره دن بـــاخ آ دیلبریم.
گـــل گؤروشک اوزو– اوزه دایایاق
یـــــــاخانین اوستونه یاخا دیلبریم.

الده نذیر تـــــــوتدوم دیلیمده دوعا
سن قاچیب یورولدون من قووا ـ قووا
نـــــه اولار آی ظالم لبـــــی لبیوا
سؤوکویم بیر دئیه م اوخ آ دیلبریم.

داغیلسین سن اولان برج و قالانی
یــورد اولسون بالکن‌نو، حیمی، دالانی
شهبازی‌یم بیزی آیری سالانـــــــــی
توش گلسین ناقافل اوخـــــا دیلبریم.

# آنا قوجالیر

بیلیرسیز بـــالالار سیزدن اؤتری
آتـــــا پیران اولور آنــا قوجالیر
آی باغیر اتلری آی انصافسیزلار
گلیر اویازیقلار جـــــانا قوجالیر.

او فولاد غیرتلی قـــامتی دمیر
سیزلره یومشاییر لاپ اولور خمیر
اگنینه گییه نمیر قـــــارنینا یئمیر
چکه‌نمیر ساچینا شانه قـــوجالیر.

شهبازی والدئین قویماز اوشاغی
بـــــالاجا داشادا ده یسین آیاغی
بیلمه مزلیک دئییل دانیشماماغی
ایچه ریدن یـــــانا - یانا قوجالیر.

## قربانام آنا

باشیم اوستون کسیب شمع کیمی یانان
او لاله یـــــاناغا قـــــربانام آنـــا.
قورخودان کولکدن بـرك سیغیند یغیم
اودکیمی قـــــوجاغا قـــربانام آنـــا.

سانکی بیـر داغیدین ساق و سولومدا
قدرت‌ایدین بیلگیمده قـــــــولـــومدا
واز کئچدین جـــانیندان منیم یولومدا
ابدی یـــاتاغا قـــــــــــربانام آنـــا.

یـــازیق شهبازی‌نین لایلاسین چالان
مندن آرتیق منیم قئیدیمه قـــــالان
تبیمـــی آزالدیب آغـــــــریمی آلان
شفقتلی دوداقـــا قـــــــــربانام آنا.

## یاراشمیر

دئییم نئجه دئییم، دئمه سـم اولمور
چوخ عاشق وار سؤزه- سازا یاراشمیر.
مقدس‌دیر پیـردی عـاشق صنعتی
فیریلداغا اویـونبازا یـاراشمیر.

اوزدن عاشق گؤردوم آستاری کیندن
آراز تـرسه آخیر کـور یئریشیندن
اوتـانمیر یـوزده بیر میندە بیریندن
صفتی صفته اوزه یـاراشمیر.

شهبازی عـاشق وار ایلهامی نـوردان
کلمه سی قـورتاریر بیر ائلی داردان
بعضی ده قیقیدیر سؤز اوردان بوردان
یئنه ده سـؤزلـری سؤزه یاراشمیر.

## ساز ساغلیغینا

دایان ســـاقی دایان, بیر ساغلیق وئریم,
بـــوردا هرکس ایچسین اؤز ساغلیغینا.
ایچک, دیک, گولک, چـــالب -اوخویاق,
شیرین– شیرین صحبت, سؤز ساغلیغینا.
بیر اللیلیک وردیخ بیر آز دور دایان,
بعضین یــــرمی بئشده ائیلیر پیان,
بعضین اللی گـــــؤرمز ائیله امتحان,
اونا یـوز- یوز دولدور سوز ساغلیغینا.
تـورپاغدی, وطندی, دولت واریمیز,
هر تک- تکی میزین ناموس عاریمیز,
غیرتـلی قیزی میز بـــاجی لاریمیز,
ســـاخلیان اصمتـلی, اوز ساغلیغینا.
آنادان گـــؤزل یوخ , آنادان گؤیچک,
ایستر جوان اولسونغ ایستر آغبیرچک,
بالاسی یانینا قـــــــــایدانا تک,
یـــــولونو گؤزلوین, گؤز ساغلیغینا.
شهبازی دولاندیم گــــــزدیم جهانی,
بوتون تــــــرکوستانی آذربایجانی,
تـــــرکون بایراغدی, بابام نشانی,
بابالار نشانی, ســــــاز ساغلیغینا.

## هاردادی

شـــــــــریعت دینی‌اینده منم دئینلر
آغـــــــــام شاهین قلندری هاردادی؟
هانسی یئرده قـــــورولوبدو بیابست
یولو نه یئردندی دری هـــــــاردادی؟

شاعـــــــرین عاشقین یـولو باشقادی
او قاپیدان یول وئرمزلر هـــــر یادی
شـــــــریعتده بنیامین‌این نه دی آدی
یئددی لـــــرین مزار لاری هاردادی؟

شهبازی باش وئریب جان صدغه‌سی
ارنلردن غئیری یـــوخدو بیرکاسی
یئرین لنگری‌نین یـــــــاشیل عباسی
پیامبرین نعلئین لـــــــری هاردادی؟

## مندن

خمیریم یوغرولوب تئللی سازیلا
کیم اونو آییرا بیله جک مندن.
ائله سارماشمیشیق بیر بیریمیزه
آغلیاجاق منله گوله جک منله.

ائلیمدن اسگیلمز ساز نسل - نسل
ساز اولمویان یئرده خلقی اؤلو بیل
قیناماز عارفلر دانلاماز عاقل
اینجیمز آغساققال آغ بیرچک مندن.

شهبازی دئمیرم محبتایمله
اوجالسام اوجالام صداقتایمله
کؤرپویه چئوریلدیم بو صنعتایمله
کئچه جک چوخلاری کئچه جک مندن.

# نئچه یاشی وار

بـــــو قورقو نظامین جـــــوابی نه دیر
نه جانی وار نه تورپاغی داشی وار.
اللی ایکی گـؤزو وار بیر حساب ایلا
بیرحسابدا قیرخ اوچ بیـرده بئشی وار.

هر گؤزونده یئددی صاباح یئددی شام
پیشیردیگی نه پیشمیشدی نه ده خـــام
نـــــه ملکدی نـــه جینیدی نه آدام
کیمدی بیلن اونـــون نئچه یـــاشی وار.

هـــر باشیندا دؤرد گؤزو وار سانینان
بس هانسی دوز اولور بـــو حسابینان؟
شهبازی یــــــــــــول گئدیر آفتابینان
ایکی دنه آلتی - آلتی بـــــــاشی وار.

## قفل بند

عـالملر حـــاکملر قاضی القضات
باش حاکماین حـکمه نه اسری وار؟
عــــالمی دوز یولا دعوت ائتمگه
نئچه رسولو وار امر بــری وار؟

نه یئـــرده تیکدیلر حقین کعبه سین؟
کیم دیوارین چکدی کیم بینؤوره سین؟
حقیقت بحریند‌ه چــــالخانان کسین
بس نییه بیربئله دردی ســری وار؟

هـــانسی مـامور وئریر قبر عذابین؟
نئچه ملک یـــازیر حساب کتابین؟
بئش شمس قمـــــرین آل عبانین
نئچه پــــــروانه سی سمندری وار؟

عـــزرائیلین حقیقتده نه دی آدی؟
اوگلسه کیمسه یه وئـــرمز امدادی
شهبازی‌نین ارنلـــــردی استادی
حقدن قـــاناد آلیب بال و پری وار.

## توز دومانا قاریشدی

کشیش جـــادون اؤز جانیوا قاییتسین
خــــان ائؤینده توز دومانا قاریشدی
کؤنلون سئوینمه سین بو آلیشماقدان
آیری دوشموش جان جانانا قاریشدی
کــــــــرم کرمینی چالدی آلیشدی.

کـــرم آلوولاندی نفت تؤکدو اصلی
بیلیندی کئشیشین نسبی نسلــــــی
آلیشدی هوسلی یـــــاندی هوسلی
معشوقونا یــــــانا یانا قاریشدی
کـــــــرم کرمینی چالدی آلیشدی

اودا بیــــــر آنیدی بیر زمانیدی
محشر قورولموشدو حق دیوانیدی
اوعشق ایـــــــلاهی‌دن سمادانیدی
یئنه قــــالخدی آسمانا قــاریشدی
کـــــــرم کرمینی چالدی آلیشدی.

کــــرم گلدی بالکن‌دا اوتوردولار
اصلی مــــریم ال آیاغین توتدولار
دیش قالمادی بی بیر چکیب آتدیلار
خـــان کرمین قانی- قانا قاریشدی
کـــــــرم کرمینی چالدی آلیشدی.

شهبازی نئیله ییم نیین نــــه سینه
قیزیل دویمه سینه قیــز دویمه سینه
اصلی شیونینه ســــــــازین سسینه
مسیح گلیب مسلمانا قــــــاریشدی
کـــــــرم کرمینی چالدی آلیشدی.

## سؤز آی کؤرپه لر

بیـــــــر بئله زمانه گؤرمه میشیدیك
شن حیات سورور‌دوک بیزآی کؤرپه لر
ایندی ایـــــــــری آنی غم زمانیدی
حه له لیک سوسوبدو دوز آی کؤرپه لر.

آتلی آتسیز قالیب پیـــــــــادا آتدا
گئدالار یـــــــول تاپیب اولوبدو کاتدا
نبض لــــــــــر دایانیر بو یاتا یاتدا
باخا باخا قالیر گــــــؤز آی – کؤرپله لر.

آستار اوزه م دئییر شیطان پیـــر اولوب
قـــــاریشیب کائینات اؤلو دیری اولوب
تولکولر یـــول کسیر چاققا ل شیر اولوب
یــــــولا چیخانماسیز سیز آی کؤرپه لر.

یئـــــــــرلی- یاتاخلیلار یـاخالانیرلار
یئرسیزلر یئرله شیب حـــــقی دانیرلار
نـــه حیا بیلیرلر نـــه اوتــــــا نیرلار
بئله گــؤرمه میشدیک اوز آی کؤرپه لر.

چـــوماق حکم ائله ییر قانون یان وئریر
جــــانسیز جانا گلیر جانلی جان وئریر
شهبازی اوو وئــرمیر داغ نشان وئریر
آشکار دئمه ک اولمور سؤز آی کؤرپه لر.

## اولایدی

نـــــــه اولار آی قاغا وجدانلار کیمی
انسان‌لیغی آلیب ســـــــاتان اولایدی.
انسانلیقدان محـــــروم آداملیقدان یان
آلیب تـــــــامسینئیدی انسان اولایدی.

اوندا هـــــر زاوالدان اولاردیق کنار
یـــــــاشیاردی انسان کیمی انسانلار
نـــــه حیله اولاردی نه ده ساختاکار
بئله بیــــر آل - وئره امکان اولایدی.

گل یـــازیق شهبازی ال چک دنیادان
خـــامدان خام تؤره‌یه‌ر نادان دان نادان
انسانلاری انسانلیقدان چیخـــــاردان
نــه شهرت اولایدی نــه شان اولایدی.

# وار

هـــــر کسین نه قده ر دوستو وار عــاشق
دوستلاری قده رده هــــــــاواداری وار
دوست تــاپماق آساندی ساخلاماق چتین
هــردوستون اؤزونون اؤز آچاری وار.

هــــایین آنلا هویون ائشیت چاره بیل
آزینا دؤز کـــــوسوب اولما دیل به دیل
دوستون آددیمینا بئش آددیــــــــــم اییل
بلکه اونـــــــــون سندن انتظاری وار.

شهبازی دوست ساخلا دوستدا دوستلاری
یئــــــردن یئر یئتیرسین گؤیلردن تاری
فتح ائیله ر یئددی قــــــات آسمانلاری
کیمین خـــــــلق ایچینده اعتباری وار.

## گؤتوررم

داغدان اؤیرنمه لی نه لــــــر وار نه لر
لنگرلییی او داغلاردان گـــــــــؤتور م.
آیــــــــــاقلامام قوجاقلارام داشلارین
درمـــانیمی تـــورپاغلاردان گؤتوررم.

قـــــــــــره نفیلین بوداغیندا یاشارام
نیل فـــــــرین کولوایلا قوجاقلاشارام
سوزولم سوزگشدن صاف صافلاشارام
دورولوغو بـــــولاغلاردان گؤتوررم.

شلاله سی مئی دی ســــوزه نی ساقی
شهبازی ال چکیر گئتمیر آیـــــــــاغی
قـــــــــاچاقلارین - قوچاقلارین یاتاغی
اعتباری بیجاقلاردان گـــــــــؤتوررم.

## او یئرلرده دی

گـــــــــــؤبگیمی طبیعته آتیبلار
اودور طبیعتیم او یئرلـــــــــرده دی.
آسفالتلار اوستونده دوغـــولمامیشام
عزّتیم شهرتیم او یئرلـــــــرده دی.

دوغمادی داغلاری هر بیر دره سی
سولار شیریلتیسی یـــارپاغلار سسی
او یورغون آنیمدا پالید کؤلگه سی
آی کیشی جنتیم اویئرلـــــــرده دی.

شهبازی داغلاردا قــالیب اوره گیم
پـــارام قالان یئردن نئجه ال چکیم
هر بیتگیسی بیر طبیبدی بیر حکیم
منیم طبا بتیم او یئرلــــــــرده دی.

## داهانا گلسين

يالتاغا سومسوگه ميدان وئرمه يين
چتينى الينه بهانــــــــــــــــه گلسين.
چـــالخالار دنيانى قـــاتار عا لمى
بئله سين گـــــوللويه كمانـــا گلسين.

اوزاقدى ايماندان اوزاقـدى ديندن
قـــاچاقدى وجداندان لاپ ازليندن
اؤزوده قـــــــاچانمير اؤز عمليندن
تانريين لعنتـــــى شيطانـــا گلسين.

شهبازى بعض‌اينده اولوبدو مرض
عادتدى يـــــازيقدا نه قصد غرض
سؤزون دهتله مز صاباح گؤزلـه‌مز
چيخاجاقدى هـــــرنه داهانا گلسين.

## ظلیم خان

عصـــریمیزین علسگـــری وورغونو
نظامیسی قـــورقودوسان ظلیم خان
سنه سؤزون یـــارادانی دئیه ردیم
قـورخماسئیدیم بیر آلله دان ظلیم خان.

سنه الهام وئریب حق درگاهیندان
پیامبر الـــی ایلن شاهلار شاهیندان
بیـــر آن آیری سالمیر باریگاهیندان
گتیـــرمیشم سنه ایمان ظلیم خان.

بـــو سرّردی یا حکمتدی بیلمیرم
بـو قدرتدی یا صنعتدی بیلمیرم
بو بخششدی یا حرّمتدی بیلمیرم
پایین آلیب یاراداندان ظلیم خـــان.

ائله یـــارادیرکی یـــارادان کیمی
سؤزو آخیر دامارلاردا قـــان کیمی
کیم یـــازا یارادا ظلیم خان کیمی
باغیشلارام اونا بیر جان ظلیم خان.

بیر الین تـــــورپاخدا بیر الین حق‌ده
حق توتوب الیندن اوتوردوب تخت‌ده
یـــــازیق شهبازیام سیـــزدن اوزاقدا
قـــالمیشام پریشان گـــریان ظلیم خان.

## قافیه وار

اوچ بندلـــــی جیغالی تجنیس ایچینده
یئددی ردیف قـــــافیه وار عاشقلار.
اول بندین قـــــــوشماسیندا ایکیسی
جیغاسیندا اوچو اولار عـــــــاشقلار.

کلمه لـــــــر بیر اولار مطلب لر ایری
مصراعلار معنالی هـــــارایلی هایلی
تجنیس تامین وئرمز قوشما گارایلی
هـــــــر معنادا بیر دایانار عاشقلار.

شهبازی شعرده شـــــاهدی جیناسلار
اوندان ســـاده کئچمز اصل صنعتکار
تکجه جیناسدی کی اؤز هـــاواسی وار
اوخویاندا تجنیس چـــــالار عاشقلار.

# دئیشمه

| عاشق سلجوق شهبازی | عاشق قارا بورچالی |
|---|---|
|  |  |

**عاشق سلجوق شهبازی**

بیـر کلمه حق دئدیم ناحق ائشیتدیم
بئله‌ایمیش بـــو دنیا قارا بورچالی.
نه یاخشی‌کی نه سلطانسان نه خانسان
چکدیره‌ردین منی دارا بـــورچالی.

**عاشق قارا بورچالی**

منده حـــق دئیرم بیر نظر ائیله
گـؤزه‌ل آختار یاخشی آرا شهبازی.
من نـاشی دئیله‌م دوستومو ساتام
گؤزله‌یردیم حالم سورا شهبازی.

**عاشق سلجوق شهبازی**

نه‌یه گتدیم بو میثالی یـــاخشی قان
وران دئمه‌ز نده چکمه‌ز خط – نشان
آلیشیبسان توستون چیخیر فئیس بوکدان
اودلانیبسان آی بیچاره بـــورچالی.

**عاشق قارا بورچالی**

جـــان آی استاد یئرسیز گلیب مثالین
سؤز توتوب پوزولوب حالین-احوالین
خئیری ندیر سنه بو قـــالما- قالین؟
توتوبسان قلمی زورا شهبـــازی.

## عاشق سلجوق شهبازی



عاشق سلجوق شهبازی

## عاشق قارا بورچالی



عاشق قارا بورچالی

بیر- ایکی شعرون وار جزما مختصر
ســـــــاز سینه‌نده یا آغلیار یا کوسر
"شهبـــــازی‌یم" سنی ساللام دربه در
یولون دوشر بوران- قارا بـورچالی.

"قارا بورچالیام" حــــــالای پوزانام
حــــــــقدان عدالتدن دیوان یازانام
فئیس‌بوکا گلمیشدیم بیر دوست قازانام
باش ایه‌رم عــــــاشقلارا شهبازی.

## شاعره قیز

بیـــــر حرف دئیرم هئچ یازیلمایب
اگـــــر یازا بیلسن یـــاز شاعره قیز.
بیـــر سس‌دیکی نه کلمه دی نه جمله
تلسمه دئیرم دؤز شـــــــــاعره قیز.

نه کپریکدی نه پیکاندی نه قـــــاشدی
نه بـــــوسه دی نه اؤپوشدو نه ماشدی
تاپابیلسن قولاغیما یـــــــــــاواش ده
بیـــر آز دوداغووو بـــوز شاعره قیز.

اوست- اوسته یاپیشسین بوزولن دوداق
ایکی دفه ســـوراق آچیبان یـــوماق
گل عـــاشق شهبازی چوخ اوزاتمیاق
بیلیندی معمّا ســـــــؤز شاعره قیز.

# گرایلی لار

## عاشق سلجوق  شهبازی



# آختاریـــرام

شیـــــرین صحبت صـــاف محبت
خـــــــــــاطاسیز قیز آختاریـرام.
هـــــم صداقت هم شــــرافت
ایلقـــــاری دوز آختاریـــــــرام.

آدی بللـــــی؛ اوغوز ائللــــی،
شیرین دیللـــی، قـــــارا تللی
اینجه بئللـــــی، نـــازیک اللی
ایشوهســـی نـــاز آختاریـــرام.

شهبازی بـــاخ؛ بئله ســـایاخ
نه چوخ اوشاخ؛ نه دؤرد آیاخ
لاله یـــــاناخ، بـــاللی دوداخ
پیاله گـــــــــؤز آختاریرام.

# دنیا

سن منی یـــامان سیخیبسان
قـــــورویوبدو سویوم دنیا.
باشیم اوستەن بیر یئل اسدیر
بیردفعه لیک اویـــــوم دنیا.

ایستر تـــــوزا تورپاغا قات
ایستر یوزایل مین ایل یاشات
یـــا گؤزومه بارماغ اوزات
یـــــاسا دؤندو تویوم دنیا.

شهبازی‌یم یوخدو چـــــارام
پـــارام اؤلوب، قالیب پـــارام
یامان دردلی صنعت کـــارام
نه چـــــالیم اوخویوم دنیا.

## اولسون

کـــــؤنول ال چک بودنیادان
دنیــــــــــا سئونلرین اولسون.
نه اؤزون اؤی نه ده قول چک
نـــــــه ده دردسرین اولسون.

چـــــــــــاشما یولدان یئل اسنده
مین یـــــــول اؤلوب دیریلسنده
ائله اؤیـــرهت اؤیــــــــره دنده
انسان شــــــاگیردلرین اولسون.

گـــــــــؤرمه دینمی سلیمانـــی؟
اؤلچدو- بیچدی بـــــو جهانی
شهبــــــــــازی آتیب دنیانـــــی
منیم دئیه نلـــــــــرین اولسون.

## اوره یمده

بـــــــــــو دنیا نه ییمه گرك
میـــــــــن دنیا وار اوره یمده.
اویغون گلمـــــــز اؤلچولـــــره
عـــــــــــالم سیغار اوره یمده.

اوره‌یم وعده سیـــز واخت سیز
تپـــــــــه سیز دره سیز داغ سیز
بیر شمع وار پیتله سیز یاغ سیز
مودام یـــــــــــانار اوره یمده.

کیمده بیـــــــــر آز محبّت وار
شهبازیدن اولماز کـــــــــــنار
یـــــــورد یــارادار یووا سالار
خـــــانه یـــــــاپار اوره یمده.

## داریخمیشام

اصیل سازا- سؤزه آلله
صنعتکارا داریخمیشام
بورچالیدا ساراشلی یا ،
کماندارا داریخمیشام.

شاکر شربته شیرواندا
خـــــان پناها سالیاندا
ازافلی دا بـــــوزالقاندا
عـاشیقلارا داریخمیشام.

هـاردادی عدالت عمی
یاندیرا یانیخ کـــــرمی
شهبازی دردلی دلقمی
چـالان نارا داریخمیشام.

## قربان اولوم

خــــــــالقا یانان انسانلارین
کمالینا قـــــــــــربان اولوم.
یئنیلمه یــــــــــــن وطنینه
مهالینا قـــــــــــربان اولوم.

داغ وقـــــــــارلی عظمتلی
شیرین ســـــــؤزلو محبّتلی
او عصمتلی او قیـــــــــرتلی
جلالنا قـــــــــــربان اولوم.

او آزارکش او زحمتکش
بــــــــابا لاریم حلال یئمیش
عاشق سلجوق قیمت وئرمیش
آمـــــالینا قـــــــــربان اولوم.

## قارا گؤز

اولموشام دلــــــی دیـــوانا
سن قـــاش آتاندان قارا گؤز.
بیرجه قییا بـــــــاخماق ایلا
ائیله دین یولدان قـارا گـــؤز.

سنی گـــــؤرن کیمی گؤزوم
عـــاقلیم جایدی چاشدیم اؤزوم
آغزیمدا قـــــــورودو سؤزوم
یئریشی جئیران قـــــارا گؤز.

شهبــــــازی‌یم دوشدوم خسته
طبییم گل بـــــــاشیم اوسته
لبی قـونچا آغزی پـــــوسته
قـــاشلاری کمان قارا گـؤز.

## لعل گتیرر

زحمتسیزکی قــازانج اولماز
آیـــــــــاق گئدر ال گتیرەر.
حـــــرام مـــال زیبیله دؤنر
حـــلال زحمت لعل گتیرەر.

کیم یــورولماز قاچماز ایشدن
لعل گــــــؤهر تاپار داشدان
امـان بورشدان یئرسیزخرجدن
بـــــــاشا نه زاوال گتیرەر.

دوست تانیشلار دورماز دایاق
گـــؤزدن سالار آرواد اوشاق
آی شهبازی بیکار قـــــالماق
ائوه قـــــــالما ـ قال گتیرەر.

## دوز ایتیردیز

اوز دالدایـــــا وواران دوستلار
اییـــری تاپدیز دوز ایتیردیـــز.
دوست یانیندا خـاطیر- حرمت
حـــلال چـؤره ك دوز ایتیردیز.

من بـــــــــاکیدا اولان آنی
قـــــوجاخلادیز بئش شیروانی
یــــان دان کئچدیز یانی یانی
دالـــــــــدالاندیز اوز ایتیردیز.

شهبازی یه وئـــــردی تـــاری
نـــــــــادان دوستو بی ایلقاری
سیـــــز صنعتـــی صنعتکاری
سینه‌زده ســـاز- ســؤز ایتیردیز.

## گؤنده ریبدی

فلک منله یـــــان دوشندن
آه یـــولوبدو غــــــم دریبدی.
او درد – کدەر مـــــــتاحینی
آچیب قـــــــاپیمدا سریبدی.

یــــاخامی توتاندان بــری
رحمـــی گلمیــر مختصری
جـــــان آغریسین دردسری
او آدیما چـــــــــؤندریبدی.

شهبـــــــازیه غم قالا سین
بـــول وئریبدی آه نالاسین
او قــــــــاداسین او بلا سین
عنوانیما گـــــــؤنده ریبدی.

# حاکملر

حدسیز اولــــوب دنیامیـــزدا
یئــــرسیز اقتیدار حـــــاکملر.
آسیب- کسیب آت اوینـــادیب
سلطانلار خـــانلار حاکملر.

تـوغیان ادیب آشیب ـ داشیب
قیلینج چکیب ســـرحد آشیب
یــــــاخینلاشیب اوزاخلاشیب
سون قــالیب بی یار حاکملر.

بــــو شهبازی نئچه کی وار
یــــــاتان لاری اویــــــاندیرار
ملک کیمی ظاهــــــــر اولار
ظالم ظلمکار حـــــــــــاکملر.

# ریزعلی

قـــــاییتدیم اوشاق چاغیما
ریـــزعلی‌نی گـــؤرنده من.
یـــــاش سوزولدو آیاغیما
ریـــزعلی‌نی گـــؤرنده من.

کـــؤنول ایستیر قول آچیلیر
ســـــاغ آچیلیر سول آچیلیر
قطار گئدیر یـــــول آچیلیر
ریـــزعلی‌نی گـــؤرنده من.

شهبـازی‌یام آشدیم داشدیـــم
لپه دؤیـــوب دالغالاشدیـــم
اوتوز اوچ ایل اوشاقلاشدیم
ریزعلی‌نی گـــــؤرنده من.

## پارا دنیا

کیمسه سندن آپـــــارمایب
قیزیل- گـــوموش پارا دنیا.
بیرده گؤروم قـالان وارمی
سالمیاسان تــــــــورا دنیا.؟

دنیـا کیمی چـــوروده‌جک
کیمین آغــا بـــوروده‌جک
بـرک توتانی سوروده‌جک
جهنمه گــــــــــورا دنیا.

کیمه وئریب تاجی- تاختی
شهبازیه یاتمیش بخت دی
نــه اویوندان چیخاجاخدی
داها بـــوندان سورا دنیا.؟

## ياد ائيلديم

هــر زمان استاد مقامين
حـــرمتيله يـــاد ائيلديم.
اولارا رحمت ديـــله يب
اؤز كـــؤنلومو شاد ائيلديم.

گلەن قالمير گئدر هـــــامى
بعض گئديش سيخير آدامى
ســؤنه نده استادين شمعى
آه چكيب فــــرياد ائيلديم

ايناميشام بـــــودور حيات
نه خـــام قالار نده استاد
شهبازيدن بيــر شـــاعر آد
قـــــالار من اثبات ائيلديم.

# مخمّس لر

## عاشق مایس گنجه‌لی و عاشق سلجوق شهبازی



## قوتاز بی

ائلیمین ایگید اوغلودو، احتبارلـــــــی قــــــوتاز بیم.
آذربایجان ســــــرکرده سی، اقتیدارلی قــــــوتاز بیم.
اطرافی ادیب شـــــاعرلـــــی، صنعتکارلی قـــــوتاز بیم.
خئیر عمل‌لی صــــــاف نییعتلی، دوز القارلی قـــوتاز بیم.
سهنددی ســـاوالان کیمی، داغ ویقارلی قـــــوتاز بیم.

آلینماز دئـــژدی قــــالادی؟ حــــاکمی دؤورانـدی ندی؟
به‌یلربه‌یی خـــــانلار خانی، ده‌گؤروم خـــــاقاندی ندی؟
بئله ایگید خــــــالقیمیزا، شــــــرفدمی شـــاندی ندی؟
سخاوتده برابر سیز، حــــــــــــاتم دؤوراندی ندی؟
پارس آباد موغان دوزونه، افتخــارلی قـــــــــوتاز بیم.

شهبازی بو مخمّس‌ده، یــــــازیب نه تهردی بــــو بی
کهلن چکیب سمند یـــــــوروب، جنگی دلاوردی بو بی
قـــوچ کور اوغلو نبی کیمی، بیر ار اوغلو اردی بو بی
یـــــــوخوده ارنلر دئمیش، هامی نیزدان سردی بو بی
قسمت اولسا گؤروشه‌ریک، اوزو نـورلو قــــــوتاز بیم.

## بیزیم

نییه بئله سئوینمه ییـم آخار بیزیم باخار بیزیم
طبعی دورو اقلیمی خوش او بیر جنّت دیــار بیزیم
ال چاتمیان اون یئتمییه ن محتشم قالالار بیزیــم
ادبیات ساحه سینده نظامی ، شـــــــهریار بیزیم
سازدا،عدالت ،کماندار، چنگیز،حسین، ستار بیزیـم.

امتحانـــــدان دوز چیخاجاق یوز سینایا مین سینایا
ایگیــد گلیب قوچ کوراوغلو، قاچاق نبی بــو دنیا یـا
صمد سودا بوغولمازدی اؤلدوروب آتدیــلار سویا
قالخ آیاغا آذربــــــایجان شکر ائله اولو تانریا
مشروطه نین باشچیلاری سردار بیزیم سالار بیزیم.

خلقین قهرمانلارینا سؤزلریــم وار قطار – قطار
جاوانشیرین شیخ شاملین نیشانیدی قیز قــلـه لار
ختایسی چالــدارآندا قلینجی ینان تــوپ یـارالار
بیــر مثالدی آتالاردان عاشیق گؤردوگون چاغیرار
عاشق سلجوق شهبازیده یازدیغی داستانلار بیزیم.

## BİZİM

Niyə belə sevinməyim, axar bizim, baxar bizim,
Təbi duru, iqlimi xoş o bir cənnət diyar bizim.
Əl çatmayan, ün yetməyən möhtəşəm qalalar bizim,
Ədəbiyyat sahəsində Nizami, Şəhriyar bizim,
Sazda Ədalət, Kamandar, Çəngi, Hüseyn, Səttar bizim.

İmtahandan düz çıxacaq, yüz sınaya, min sınaya,
İgid gəlib qoç Koroğlu, Qaçaq Nəbi bu dünyaya.
Səməd suda boğulmazdı, öldürüb atdılar suya,
Qalx ayağa Azərbaycan, şükr eylə ulu tanrıya,
Məşrutənin başçıları sərdar bizim, salar bizim.

Xalqın qəhrəmanlarına sözlərim var qatar-qatar,
Cavanşirin Şeyx Şamilin nişanıdı Qız qalalar.
Xətaisi Çaldaranda qılıncıynan top yaranlar,
Bir misaldı atalardan, aşıq gördüyün çağırar,
Aşıq Səlcuq Şəhbazi də yazdığı dastanlar bizim.

# QOTAZ BƏYİM

Elimim igid oğludu etibarlı **Qotaz**(1) bəyim,
Azərbaycan sərkərdəsi,  iqtidarli qotaz bəyim.
Ətrafi ədib, şairli, sənətkarlı Qotaz bəyim,
Xeyir əməlli, saf niyyətli, düz ilqarlı Qotaz bəyim,
Şahdağı, Savalan kimi dağ vüqarlı Qotaz bəyim.

Alınmaz  dejdi qaladı, hakimi devrandı, nədi?
Bəylər bəyi, xanlar xanı, de görüm, xaqandı, nədi?
Belə igid xalqımıza şərəfdimi, şandı, nədi?
Səxavətdə bərabərsiz hatəmi dövrandı, nədi?
Parsabad, Muğan düzünə iftixarlı Qotaz bəyim.

Şəhbazi bu muxəmməsdə yazıb nətəhərdi bu bəy,
Köhlən çəkib səmənd yorub, cəngi dilavardı bu bəy.
Qoç Koroğlu, Nəbi  kimi bir ər oğlu ərdi bu bəy,
Riza şah bəylərə demiş, hamınızdan sərdi bu bəy,
Qismət  olsa, görüşərik,  üzü nurlu Qotaz bəyim.

1-Qotaz = reza şah zamanı Parsabad mahalının Xanı – millətçi bir bəy

# MÜXƏMMƏSLƏR

## AŞIQLAR: SƏLCUQ ŞƏHBAZİ VƏ SƏTTAR BABAYİ



# YAD EYLƏDİM

Hər zaman ustad məqamın,
Hörmətinən yad eylədim,
Onlara rəhmət diləyib,
Öz könlümü şad eylədim.

Gələn qalmır, gedər hamı,
Bəz gediş sıxır adamı.
Sönəndə ustadın şamı,
Ah çəkib fəryad eylədim.

İnanmışam, budur hayat,
Nə xam qalar, nə də ustad.
Şəhbazidən bir şair ad,
Qalar, mən isbat eylədım.

# PARA DÜNYA

Kimsə səndən aparmayıb,
Qızıl, gümüş, para dünya.
Bir  de görüm, qalan varmı,
Salmıyasan tora, dünya?

Dünya  kimin  çürüdəcək,
Kimin ağa bürüdəcək.
Bərk tutanı sürüdəcək,
Cəhənnəmə, gora, dünya!

Kimə verib  tacı-taxtı,
Şəhbaziyə yatmış baxtı.
Nə  oyundan çıxacaxdı,
Daha bundan sonra dünya?

# RİZƏLİ

Qayıtdım uşaq çağıma,
Rizəlini görəndə mən.
Yaş süzüldü ayağıma,
Rizəlini görəndə mən.

Könül istir, qol açılır,
Sağ  açılır, sol açılır,
Qatar gedir, yol açılır,
Rizəlini görəndə mən.

Şəhbaziyəm, aşdım-daşdım,
Ləpə  döyüb  dalğalaşdım.
Otuz  üç il uşaqlaşdım,
Rizəlini görəndə mən.

## HAKİMLƏR

Hədsiz olub dünyamızda

Yersiz iqtidar hakimlır.

Asıb-kəsib, at oynadıb

Sultanlar, xanlar, hakimlər.

Tüğyan edib aşıb-daşıb,

Qılınc çəkib, hədlər aşıb.

Yaxınlaşıb, uzaqlaşıb,

Son qalib bi yar hakimlər.

Bu Şəhbazi neçə ki var,

Uyanları oyandırar.

Mələk kimi zahir olar,

Zalım, zülmükar hakimlər.

# GÖNDƏRİBDİ

Fələk məndən yan  düşəndən,
Ah  yolubdu,  qəm  dəribdi.
Dərdi-kədər   matahını
Açıb  qapımda  səribdi.

Yaxamı,  tutandan bəri,
Rəhmi gəlmir müxtəsəri.
Can  ağrısın,  dərdi-səri
O, adıma  çöndəribdi.

Şəhbaziyə qəm qalasın,
Bol veribdi  ah naləsin.
O  qadasın  o balasın,
Ünvanıma  göndəribdi.

# DÜZ İTİRDİZ

Üz daldaya vuran dostlar,
Əyri tapdız, düz itirdiz.
Dost yanında xətir-hörmət,
Halal çörək-duz itirdiz.

Mən Bakıda olan anı,
Qucaqladız beş “şirvanı”.
Yandan keçdiz yanı-yanı,
Daldalandız, üz itirdiz.

Şəhbaziyə verdi tanrı,
Nadan d ostu biilqarı,
Siz sənəti, sənətkarı,
Sinəzdə saz, söz itirdiz.

# GƏTİRƏR

Zəhmətsiz ki qazanc olmaz,
Ayaq gedər, əl gətirər.
Haram mal zibilə dönər,
Halal zəhmət ləl gətirər.

Kim yorulmaz, qaçmaz işdən,
Ləli-gövhər tapar daşdan.
Aman borcdan, yersiz xərcdən,
Başa nə zaval gətirər.

Dost-tanışlar durmaz dayaq,
Gözdən salar arvad-uşaq.
Ay Şəhbazi, bekar qalmaq
Evə qalmaqal gətirər.

# QARA GÖZ

Olmuşam dəli-divana,
Sən qaş atandan, qaragöz.
Bircə qıya baxmaq ilə,
Eylədin yoldan, qaragöz.

Səni görən kimi gözüm,
Ağlım caydi, çaşdım özüm.
Ağzımda qurudu sözüm,
Yerişi ceyran, qaragöz.

Şəhbaziyəm, düşdüm xəstə,
Təbibim, gəl başım üstə.
Ləbi qönçə, ağzı püstə,
Qaşları kaman, qaragöz.

# QURBAN OLUM

Xalqa yanan insanların,
Kamalına qurban olum.
Yenilməyən vətəninə,
Mahalına qurban olum.

Dağ vüqarlı, əzəmətli,
Şirin sözlü, məhəbbətli,
O ismətli, o qeyrətli,
Cəlalına qurban olum.

Azarkeş o zəhmət keş,
Babalarım halal yemiş.
Aşıq Səlcuq qiymət vermiş,
Amalına qurban olum.

# DARIXMIŞAM

Əsil saza-sözə, Allah,
Sənətkara  darıxmışam.
Borçalıda  Saraçlıya,
Kamandara darıxmışam.

Şakir, Şərbətə Şirvanda,
Xan  Pənaha da Salyanda,
Azaflıda, Bozalqanda
Aşıqlara darıxmışam.

Hardadı Ədalət  əmi,
Yandıra  "Yanıq Kərəmi".
Şəhbazi, dərdli "Dilqəmi",
Çalanlara  darıxmışam.

# ÜRƏYİMDƏ

Bu dünya nəyimə gərək,
Min dünya var ürəyimdə.
Uyğun gəlməz ölçülərə,
Aləm sığar ürəyimdə.

Ürəyimdə vədəsiz -vaxtsız,
Təpəsiz, dərəsiz, dağsız,
Bir şəm var piltəsiz, yağsız,
Müdam yanar ürəyimdə.

Kimdə bir az məhəbbət var,
Şəhbazidən olmaz kənar.
Yurd yaradar, yuva salar,
Xanə yapar ürəyimdə.

# OLSUN

Könül, əl çək bu dünyadan,
Dünya sevənlərin olsun.
Nə özün öy, nə də qol çək,
Nə  də dərdi-sərin olsun.

Çaşma yoldan yel əsəndə,
Min yol ölüb dirilsən də,
Elə öyrət öyrədəndə,
İnsan şagirdlərin olsun.

Görmədinmi Süleymanı,
Ölçdü-biçdi bu cahanı.
Şəhbazi atıb dünyanı,
Mənim deyənlərin olsun.

# DÜNYA

Sən məni yaman sıxıbsan,
Quruyubdu suyum, dünya.
Başım üstən bir yel əsdir,
Birdəfəlik uyum, dünya.

İstər toza, torpağa qat,
İstər yüz il, min il yaşat,
Ya gözümə barmaq uzat,
Gedib hayım-huyum, dünya.

Şəhbaziyəm, yoxdu çaram,
Param  ölüb, qalıb param.
Yaman dərdli sənətkaram,
Nə çalım-oxuyum, dünya.

# AXTARIRAM

Şirin söhbət, saf məhəbbət,
Xatasiz qiz axtarıram.
Həm sədaqət həm şərafət,
Ilqarı düz axtarıram.

Adı bəlli, Oğuz elli,
Şirin dilli, qara telli,
Incə belli, nazik əlli,
Işvəsi naz axtarıram.

Şəhbazi bax ; belə sayax,
Nə çox uşax, nə dörd ayax,
Lalə yanax , ballı dodax,
Piyalə göz axtarıram.

# GƏRAYLILAR



**Aşıq Qara Borçalı:**

Can ay ustad, yersiz gəlib misalın,
Söz tutub, pozulub halın - əhvalın.
Xeyri nədir sənə bu qalmaqalın,
Tutubsan qələmi zora, Şəhbazi.

**Aşıq Səlcuq Şəhbazi:**

Bir-iki şeirin var, cızma muxtəsər,
Saz sinəndə ya ağlıyar, ya küsər.
Şəhbaziyəm, səni sallam dərbədər,
Yolun düşər, boran-qara, Borçalı.

**Aşıq Qara Borçalı:**

Qara Borçalıyam, halay pozanam,
Haqdan, ədalətdən divan yazanam.
Facebooka gəlmişdim dost qazanam,
Baş əyərəm aşıqlara, Şəhbazi.

# DEYİŞMƏ

## AŞIQ ŞƏHBAZİ & QARA BORÇALI



**Aşıq Səlcuq Şəhbazi:**
Bir kəlmə haqq dedim, nahaq eşitdim,
Bax, dünya beləymiş, Qara Borçalı.
Nə yaxşı ki, nə sultansan, nə də xan,
Çəkdirərdin məni dara, Borçalı.

**Aşıq Qara Borçalı:**
Mən də haqq deyirəm, bir nəzər eylə,
Gözəl axtar, yaxşı ara, Şəhbazi.
Mən naşı deyiləm dostumu satam,
Gözləyirdim halım sora Şəhbazi.

**Aşıq Səlcuq Şəhbazi:**
Niyə çəkdim bu misalı, yaxşı qan,
Vuran deməz, nə də çəkməz xət – nişan.
Alışıbsan, tüstun çıxır Facebookdan,
Odlanıbsan, ay beçara Borçalı.

# NAŞI YANDIRIB

Dünyanın əzəldən belədi işi ,
Dağları püsgürdüb daşı yandırıb.
Varlinin baxtına özü qol çəkib
Yoxsulda kipriyi qaşı yandırıb.

Dünyanı yandırmır nə alov nə köz,
Nə qorxu kar edir, nə kəsərli söz,
Hər əmrinə qatlan, hər felinə döz,
Qurunun oduna yaşı yandırıb.

“Şəhbazi” dünya kı gözünü yumar,
Nə alim tanıyar, nə də sənətkar,
Ayıq ol, eşidər! yaxovu tutar,
Hər nə qanan yanıb, naşı yandırıb.

# ŞAİRƏ QIZ

Bir hərif deyirəm, heç yazılmıyıb!
Onu tapa bilsən, yaz, Şairə qız.
Bir səsdi ki, nə kəlmədi, nə cümlə,
Tələsmə deyirəm, döz, Şairə qız.

Nə kiprikdi, nə peykandı, nə qaşdı,
Nə busədi, nə öpüşdü, nə maçdı,
Tapa bilsən qulağıma yavaş de,
Bir az dodağını büz, Şairə qız.

Üst-üstə yapışsın büzülən dodaq,
İki dəfə soraq, açıban yumaq,
Gəl Aşıq Şəhbazi, çox uzatmayaq,
Bilindi müəmma, söz, Şairə qız.

# QAFİYƏ

Üçbəndli cığalı təcnis içində
Yeddi rədif qafiyə var, aşıqlar.
Əvəl bəndin qoşmasında ikisi,
Cığasında üçü olar, aşıqlar.

Kəlmələr bir olar, mətləblər ayrı,
Misralar mənalı haraylı, haylı.
Təcnis tamın verməz qoşma gəraylı,
Hər mənada bir dayanar, aşıqlar.

Şəhbazi, şeirdə şahdı cinaslar,
Ondan sadə keçməz əsil sənətkar.
Təkcə  cinasdı ki, öz havası var,
Oxuyanda təcnis çalar, aşıqlar.

# ZƏLİMXAN



Əsrimizin Ələsgəri, Vurğunu,
Nizamisi, Qorqudusan, Zəlimxan.
Sənə sözun yaradanı diyərdim,
Qorxmasaydım bir Allahdan, zəlimxan.

Sənə ilham verir haqq dərgahından,
Peyğəmbər əli ilən, şahlar şahilan.
Bir an ayrı salmır bargahindan,
Gətirmişəm sənə iman, Zəlimxan.

Bu sirrdi, ya hikmətdi, bilmirəm,
Bu qüdrətdi, ya sənətdi, bilmirəm,
Bu bəxşişdi, ya hörmətdi, bilmirəm,
Payın alıb yaradandan Zəlimxan.

Elə yaradır ki yaradan kimi,
Sözü axır damarlara qan kimi.
Kim yaza-yarada Zəlimxan kimi,
Bağışlaram ona bir can, Zəlimxan.

Bir əlin torpaqda, bir əlin haqda,
Haq tutub əlindən çıxardıb taxta.
Yazıq Şəhbaziyəm, sizdən uzaqda,
Qalmışam pərişan, giryan, Zəlimxan.

# GƏLSİN

Yaltağa, sümsüyə meydan verməyin,
Çətini əlinə bəhana gəlsin.
Çalxalar dünyanı, qatar aləmi,
Beləsin gülləyə, kamana gəlsin.

Kənardı imandan, kənardı dindən,
Qaçaqdı vicdandan lap əzəlindən.
Özü də çıxammır öz tələsindən,
Allahın lənəti şeytana gəlsin.

Şəhbazi, bəzində olubdu mərəz,
Adətdi yazıqda, nə qəsdi-qərəz.
Sözün dəhətləməz, sabah gözləməz,
Çıxacaqdı hər nə, dahana gəlsin.

# O YERLƏRDƏDİ

Göbəyimi təbiətə atıblar,
Odur, təbiətim o yerlərdədi.
Asfaltlar üstündə doğulmamışam,
İzzətim, hörmətim o yerlərdədi.

Doğmadı dağları, hər bir dərəsi,
Sular şırıltısı, yarpağlar səsi,
O yorğun anımda palıd kölgəsi,
Ay kişi, cənnətim o yerlərdədi.

Şəhbazi, dağlarda qalıb ürəyim,
Param qalan yerdən necə əl çəkim.
Hər bitgisi bir təbibdi, bir həkim,
Mənim təbabətim o yerlərdədi.

# GÖTÜRRƏM

Dağdan öyrənməli nələr var, nələr,
Ləngərliyi o dağlardan götürrəm.
Ayaqlamam, qucaqlaram daşların,
Dərmanımı torpaqlardan götürrəm.

Qərənfilin budağında yaşaram,
Nilpərin  koluyla qucaqlaşaram,
Süzülləm süzgəcdən, saf-saflaşaram,
Duruluğu bulaqlardan götürrəm.

Şəlaləsi meydi, süzəni saqi,
Şəhbazi əl çəkir, getmir ayağı.
Qaçaqların, qoçaqların yatağı,
Etibarı bucaqlardan götürrəm.

# VAR

Hər kəsin nə qədər dostu var,  aşıq,
Dostları qədər  də  havadarı  var.
Dost tapmaq asandı, saxlamaq çətin,
Hər dostun özünün öz açarı var.

Hayın anla, huyun eşit, çarə bil,
Azına döz, küsüb olma dilbədil.
Dostun addımına beş addım əyil,
Bəlkə, onun səndən intizarı var.

Şəhbazi, dost saxla dostla dostları,
Yerdən yer yetirsin, göylərdən tanrı.
Fəth eylər yeddiqat asimanları,
Kimin xalq yanında etibarı var.

# OLAYDI

Nə olar, ay qağa, vicdanlar kimi,
İnsanlığı alıb-satan olaydı.
İnsanliqdan məhrum, adamlıqdan yan,
Alıb tamsıneydi, insan olaydı.

Onda hər zavaldan olardıq kənar,
Yaşayardı insan kimi insanlar.
Nə hiylə olardı, nə də saxtakar,
Belə bir alverə imkan olaydı.

Gəl yazıq Şəhbazi, əl çək dünyadan,
Xamdan xam törəyər, nadandan nadan.
İnsanları insanlıqdan çıxardan,
Nə şöhrət olaydı, nə şan olaydı.

# SÖZ, AY KÖRPƏLƏR

Bir belə zəmanə görməmiş idik,
Şən hayat sürürdük biz, ay körpələr.
İndi əyri anı, qəm zamanıdı,
Hələlik susubdu düz, ay körpələr.

Atlı atsız qalıb, piyada atda,
Gədalar yol tapıb, olubdu katda.
Nəbzlər dayanır bu yatayatda,
Baxa-baxa qalır göz, ay körpələr.

Astar üzəm deyir, şeytan pir olub,
Qarışıb kainat, ölü diri olub,
Tülkülər yol kəsir, çaqqal şir olub,
Yola çıxammasız siz, ay körpələr.

Yerli-yataqlılar yaxalanırlar,
Yersizlər yerləşib haqqı danırlar,
Nə həya bilirlər nə utanırlar,
Belə görməmişdik üz, ay körpələr.

Çomaq hökm eləyir, qanun yan verir,
Cansız cana gəlir, canlı can verir,
Şəhbazi ov vermir, dağ nişan verir,
Aşkar demək olmur söz, ay körpələr.

# TOZ DUMANA QARIŞDI

Keşiş, cadun öz canına qayıtsın,
Xan evində toz dumana qarışdı.
Könlün söyünməsin bu alışmağa,
Ayrı düşmüş can canana qarışdı,
Kərəm "Kərəmi"ni çaldı, alışdı.

Kərəm alovlandı, neft tökdü Əsli,
Bilindi keşişin nəsəbi, nəsli.
Alışdı həvəsli, yandı həvəsli,
Məşuquna yana-yana qarışdı,
Kərəm "Kərəmi"ni çaldı, alışdı.

O da bir an idi, bir zaman idi,
Məhşər qurulmuşdu, haqq divan idi.
O eşq ilahidən, səmadan idi,
Yenə qalxdı asimana qarışdı,
Kərəm "Kərəmi"ni çaldı, alışdı.

Kərəm gəldi, balqun da oturtdular,
Əsli – Məryəm əl-ayağın tutdular.
Diş qalmadı, bir- bir çəkib atdılar,
Xan Kərəmin qanı qana qarışdı,
Kərəm "Kərəmi"ni çaldı, alışdı.

Şəhbazi neyləsin nəyin nəsinə,
Qızıl düyməsinə, qız düyməsinə.
Əsli şivəninə, Kərəm səsinə,
Məsih gəlib müsəlmana qarışdı,
Kərəm "Kərəmi"ni çaldı, alışdı.

# QIFILBƏND

Alimsən, hakimsən qaziyul-quzat,
Baş hakimin hökmə nə əsəri var.
Aləmi düz yola dəvət etməyə,
Neçə rəsulu var, əmrbəri var.

Nə yerdə tikdilər Haqqın Kəbəsin,
Kim divarın çəkdi, kim bünövrəsin?
Həqiqət bəhrində çalxanan kəsin,
Bəs niyə bir belə dərdi-səri var.

Hansı məmur verir qəbir əzabın,
Neçə mələk yazır hesab-kitabın?
Beş şəmsi-qəmərin ali-əbanın
Neçə pərvanəsi, səməndəri var?

Əzrailin həqiqətdə nədi adı,
O gəlsə, kimsəyə verməz imdadı?
Şəhbazinin ərənlərdi ustadı,
Haqdan qanad alıb balu-pəri var.

# NEÇƏ YAŞI VAR

Bu qurğu nizamın cavabı nədir,
Nə canı var, nə torpağı-daşı var.
Əlli iki gözü var bir hesab ilə,
Bir hesabda qırx üç, birdə beşi var.

Hər gözündə yeddi sabah, yeddi şam,
Bişirdiyi nə bişmişdi, nə də xam.
Nə mələkdi, nə cinnidi, nə adam,
Kimsə bilmir onun neçə yaşı var.

Hər başında dörd gözü var sanılan,
Bəs hansı düz olur bu hesab ilən.
Şəhbazi yol gedir afıtab ilən,
İki dənə altı-altı başı var.

# MƏNDƏN

Xəmirim yoğrulub telli saz ilə,
Kim onu ayıra biləcək məndən.
Elə sarmaşmışıq bir-birimizə,
Ağlayacaq mənnən, güləcək mənnən.

Elimdən əskilməz saz nəsil-nəsil,
Saz olmayan yerdə xalqı olü bil.
Qınamaz ariflər, danlamaz aqil,
İnciməz ağsaqqal, ağbirçək məndən.

Şəhbazi, demirəm məhəbbətimdən,
Ucalsam, ucallam sədaqətimnən.
Körpüyə çevrildim bu sənətimnən,
Keçəcək, çoxları keçəcək məndən.

# HARDADI

Şəriət dinində mənəm deyənlər,
Ağam **Şahin Qələndəri**(1) hardadı?
Hansı yerdə qurulubdu biyabəst,
Yolu nə yerdəndi, dəri hardadi?

Aşığın, şairin yolu başqadı,
O qapıdan yol verməzlər hər yadı.
Şəriətdə Binyaminin nədi adı,
Yeddilərin  məzarları hardadı?

Şəhbazi, baş verib can sadağası,
Ərənlərdən  qeyri yoxdu bir kəsi.
Yerin ləngərinin yaşıl əbası,
Peyğəmbərin  nəleynləri hardadı?

1-- Şahin Qələndəri = həzirət imam əlinin qularından birinin adı

# SAZ SAĞLIĞINA

Dayan saqi, dayan bir sağlıq verim,
Burda hərə içsin, öz sağlığına.
İçək, deyək-gülək, çalıb-oxuyaq,
Şirin-şirin söhbət, söz sağlığına.

Bir əlli ki vurduq, bir az dur dayan,
Bəzən iyirmi beş də eyliyər piyan.
Bəzən əlli görməz, eylə imtahan,
Ona yüz-yüz doldur, süz sağlığına.

Torpaqdı, Vətəndi dövlət-varımız,
Hər tək-təkimizin namus arımız.
Qeyrətlı qızımız, bacılarımız
Saxlıyan ismətli üz sağlığına.

Anadan gözəl yox, anadan göyçək,
İstər cavan olsun, istər ağbirçək.
Balası yanına qayıdanadək,
Yolunu gözlüyən göz sağlığına.

Şəhbazi, dolandım gəzdim cahanı,
Bütün Türküstanı, Azərbaycanı.
Türkün bayrağıdı babam nişanı,
Babalar nişanı Saz sağlığına.

# YARAŞMIR

Deyim, necə deyim, deməsəm olmur,
Çox aşıq var, sözə-saza yaraşmır.
Müqəddəsdir, pirdi aşıq sənəti,
Fırıldağa, oyunbaza yaraşmır.

Üzdən aşıq gördüm, astarı kindən,
Araz tərsə axır Kür yerişindən,
Utanmır yüzdə bir, mində birindən,
Sifəti sifətə, üzə yaraşmır.

Şəhbazi, aşıq var ilhamı nurdan,
Kəlməsi qurtarır bir eli dardan.
Bəzi də qıqıdır söz ordan-burdan,
Yenə də sözləri sözə yaraşmır.

# ANA

Başım üstün kəsib şəm kimi yanan,
O lalə yanağa qurbanam, ana.
Qorxudan, küləkdən, bərk sığındığım,
Od kimi qucağa qurbanam,  ana.

Sanki bir dağıydın, sağ-solumda,
Qudrət idin biləyimdə, qolumda,
Vaz keçdin özündən  mənim yolumda,
Əbədi yatağa qurbanam, ana.

Yazıq Şəhbazinin laylasın çalan,
Məndən artıq mənim qeydimə qalan,
Təbimi azaldıb, ağrımı alan,
Şəfqəttli dodağa qurbanam, ana.

# ANA QOCALIR

Bilirsiz, balalar sizdən ötəri,
Ata piran olur, ana qocalır.
Ay bağır ətləri, ay insafsızlar,
Gəlir o yazıqlar cana, qocalır.

O polad qeyrətli, qaməti dəmir,
Sizlərə yumşayır, lap olur xəmir.
Əyninə geyəmmir, qarnına yemir,
Çəkəmmir saçına şana, qocalır.

Şəhbazi, valideyn qoymaz uşağı,
Balaca daşa da dəysin ayağı.
Bilməməzlik deyil danışmamağı,
İçəridən yana-yana qocalır.

# DİLBƏRİM

Küçədə-bazarda görüşəmmirik,
Barı, pəncərədən bax, a dilbərim.
Gəl görüşək, üzü-üzə dayayaq,
Yaxanın üstünə yaxa, dilbərim.

Əldə nəzir tutdum, dilimdə dua,
Sən qaçıb yoruldun, mən qova-qova.
Nə olar ay zalım, ləbi ləbuva,
Söykəyəm, bir deyəm ox, ay dilbərim.

Dağılsın sən olan bürcü, qalanı,
Aramıza ayrılığı salanı.
Şəhbaziyəm, səni məndən alanı,
Keşkə tuş gəleydi oxa, dilbərim.

# BEŞƏ BEŞ GƏLİR

Könül, uyma ayıq-sayıq olgunan,
Yerli-birli nahaq haqdan baş gəlir.
Ya düz yaranmayıb, ya zaman əyib,
Əyrinin baxtına beşə beş gəlir.

Yalan əsas olub insan sərində,
Əl çatmır, sədaqət qalıb dərində.
Əməllər tərsədi bəzilərində,
Adi insanlara sözü xoş gəlir.

Şəhbazi, bir zaman açıbsan ki göz,
Nə bir həya vardı, nə utanır üz.
Olsa da milyardda, milyonda bir düz,
Getməmiş yerinə min car keş gəlir.

# AZ YAŞAMIŞAM

Böyük xalq içində təmiz ad ilə,
Qırx beş bayram görüb yaz yaşamışam.
Ah, neynim anları, ağır günləri,
Götürsən, beş ildən az yaşamışam.

Para varaxlardı mənim daş-qaşım,
Dilimin kötəyin yeyir bu başım.
A dostlar-tanışlar, a yar-yoldaşım,
Nə ki yaşamışam, düz yaşamışam.

Ay ağam, ay bəyim, ay qardaş-bacı,
Aşıq Şəhbaziyəm, deyiləm hacı.
Başımda aşıqlıq nişanı, tacı,
Sinəmdə sədəfli saz yaşamışam.

# HƏSƏN MİRZƏ

Həsən Mirzə, alim, porofessor, doktor,
Sənin tək arifə üz tutanam mən.
Payımı alandan şah Nəcəfdən,
Ölçülü-biçili bir nişanam mən.

Aşıq olub həqiqəti seçmişəm,
Ya hu deyin dəryasnndan keçmişəm.
Alışanda əsil meydən içmişəm,
Qoymaz heç atəşə, narə yanam mən.

Bir hava yaradan aşıq gəzirsən,
On hava dastanlı bir aşığam mən.
Tehranda  olaram məhələmdə(kən),
Məni tapa bilsən sə diyənəm mən.

# QIFƏLBƏND

## DƏDƏ QURBANİ VƏ AŞIQ ŞƏHBAZİ





IONA/Photo:Soroush

## AŞIQ ŞƏHBAZİ

On iki aylardı, nizam qurğu düz,
Səhrası genişdi, görə bilsə göz,
Aydı-gündü, gecə -gündüz, haqqlı söz
Qusur yoxdu heç bir zaman dördünə.

## DƏDƏ QURBANİ

Qurbani sözlərin eylədi tamam,
Bəzinə xoş gəlməz bu şirin kəlam.
Səkkiz şey insana verildi ənam,
Ağıl, mərfət, huşdu, kamal, dördü nə?

## AŞIQ ŞƏHBAZİ

Şəhbazi haqq sözü eyləməz tamam,
Hələ bundan sonra çox edər davam.
Dərki-Sehət, Eşqı-Camaldı ənam,
Cavab verdim ustadımın dördünə.

# QIFƏLBƏND (DÖRDÜ NƏ)?

## DƏDƏ QURBANİ VƏ AŞIQ ŞƏHBAZİ





IONA/Photo:Sorousł

## DƏDƏ QURBANİ

On iki gözəlin seyrinə vardım,
Gözüm düşdü gözəllərin dördünə.
Altısı bəd əməl, dindirmək olmur,
İkisi mehriban, onun dördü nə?

## AŞIQ ŞƏHBAZİ

On iki gözələ mən də vurğunam,
Axşam-sabah yalvarıram dördünə.
Bəd əməl (s)lardan Tanrı qorusun,
İki sәlavatdı salam dördünə.

## DƏDƏ QURBANİ

On ikisi bir səhrada yatıbdı,
Yatıbdısa, xab içində batıbdı,
Səkkiz şey var, bu dünyanı tutubdu,
Abı-atəş, xakı- baddı, dördü nə?

# CEYRAN

Ceyran, qaç bir yerdə başın daldalan,
Sözüm çox, sadəcə söz deyil, ceyran.
Aşıqdan incimə, dönüb zəmanə,
Hər həmayil olan saz deyil, ceyran.

Dağlar o dağlardı, yer də o yerdi,
Çevrilib insanlar hər fərddən fərdi.
Qatma namərdlərə mərd oğlu mərdi,
Amma insafsız da az deyil, ceyran.

Sən saza aldandın, o güllə atdı,
Güllə sinənə yox, inama batdı.
Şəhbazi, bəs məni nələr aldatdı,
Onu bir şeirində yaz deyir, ceyran.

# GƏLİBDİ

Yığılsın ozanlar, gəlsin aşıqlar,
Od yurdunun xoş avazı gəlibdi.
Şirin ləhcəsində ustad Mahmudun,
Bozalqanın söhbət-sazı gəlibdi.

Gəlişi ilə gətiribdi İmranı,
Aşıq Ələsgəri, Əkbər, Əlxanı.
Azaflı Mikayıl – sənət loğmanı,
Keçib Kürdən, xan Arazı gəlibdi.

Gəzdir sağlığında saqi badə mey,
Saz, gürüldə, kaman, çağla, sızla, ney.
Müjdə verin ozanlara, müjdə hey,
Çox bağlı sözlərin razi gəlibdi.

Sinəsində dastanları gətirən,
Əsli xanı Xan Kərəmə yetirən,
Bir misrada qıfılbəndlər bitirən,
Şəhbazinin sərəfrazi gəlibdi.

# NƏ TƏLƏSİRSƏN

Bu  ömur karvanın asta-asta sür,
Ey  qoca  sariban, nə  tələsirsən?
Allahın əmri ilə can alan mələk,
Bir gün artıq dayan, nə tələsirsən?

Bir imkan ver, bir də gəzim dağları,
Çayırlı  düzləri,  buz  bulaqları.
Gözüyaşlı qoyma sən uşağları,
Hökmüdar yaradan, nə tələsirsən?

Oğlum Hüseyn, sinam, **kəsigim**(1) şadı,
Görməyə  gəlirlər,  onlar  yoldadı.
Yazıq  Şəhbaziyə  eylə  imdadı,
Bu işdə bir  yuban,  nə  tələsirsən?

1-- kəsigim = bir parçam – ata- ananın qız uşağına məhəbbəti

## SAZ DƏYƏCƏKDİ

Xatirin özündən incədi sənin,
Dindirib danişsam, söz dəyəcəkdi.
Desəm aşkarlanma, inciyəcəksən,
Deməsəm bədnəzər göz dəyəcəkdi.

Gözüm düşüb gərdənində şahmara,
Qəlbim para-para sinəndə nara,
Görəsən, ay üzə, bal dodaqlara,
Hansı dodaq dəyib, üz dəyəcəkdi?

Mən sənin eşqində tora düşmüşəm,
Etiraf edirəm, səhv eyləmişəm.
Aşıq Şəhbaziyəm, çox gec bilmişəm,
Mənim də dərdimə saz dəyəcəkdi.

# ƏSGƏRƏ QURBAN

Azərbaycanımın sərhəddlərini
Qoruyan zabitə, əsgərə qurban.
Canlarından keçən Mubarizləri
Yetirən torpağa min kərə qurban.

Od yurdumun qartaları pilotlar,
Səmasını şahin kimi qoruyar.
Yerli-birli ordumuzda kim ki, var,
Onları yetirən ellərə qurban.

Şəhbazi, od yurdu şöhrətim-şanım,
Qızıl quşa bənzər Azərbaycanım.
Qarabağ deyilən cənnət məkanım,
Səndə Xocalıya, Tərtərə qurban.

# QAPI VAR

Qapıynan qapının çox fərqi var, çox,
Qapı var – istərəm bağladam, Allah.
Qapı var – önündən çəkilsəm ölləm,
Qapı var – çalmasam, çox şadam, Allah.

Qapı var – darvaza, min  nəfər, keçər,
Qapı var – açılar hərdən birtəhər.
Qapı var – şəkərdi, qapı var zəhər,
Qapı var – arzumdu bir dadam, Allah.

Qapı var – açıqdı, mudam qonaqlı,
Qapı var – əzəldən bağlıdı, bağlı.
Qapı var – həmişə şamlı-çıraqlı,
Qapı var ki, deyir poladam, Allah.

Qapı var – Mədinə, Məkkə dər idi,
Qapı var – sahibi ərənlər idi.
Qapı var – Tanrının öz məhzəridi,
Qapı var – əl getmir uzadam, Allah.

Qapı var, ümüddü, qoy olsun abad,
Qapı var – kişisi arvaddan arvad.
Qapı var, Şəhbazi, qohum-qonşu yad,
Qapı var – tanımır bir adam, Allah.

# ALLAH, ALLAH

Yaman darıxıram, qəlbim darıxır,
Alışır sinəmdə köz, Allah, Allah.
Bilmirəm ki, gəlim, ya da gəlməyim,
Qaradı yanında üz, Allah, Allah.

Əsib titrəmişəm qarlı qışında,
Bahar yağışında, yaz yağışında.
Nə səhv eyləmişəm dolanışımda,
Çeviribsən məndən üz allah, Allah.

Hər bir qəmdən çatıb doyunca payım,
Göylərə ucalıb harayım, hayım.
Bilmirəm ki, yazım, ya da yazmayım,
Yaman tərsə gəlir söz Allah, Allah.

Nasazdı həmdəmim, göydən aslanıb,
Şerim, sözüm, qəlbim kimi yaslanıb.
Nə zamandı bağlı qalıb paslanıb,
Durnaboğaz tavar saz Allah, Allah.

Yazıq Şəhbazidən tutmursan soraq,
Olma nəzərindən salıbsan qıraq.
Qaranlığa düşüb qalan yol-yolaq,
İtirir yollari göz Allah, Allahş

# DÜZ KİŞİLƏRDƏ

Qan bağlıyan, şər yatırdan kəlmələr
Getdi sədaqətli düz kişilərdə.
Kişilik sifəti, mərdanəliklər,
Əriyib su olur bəz kişilərdə.

Onlar sədaqətdə doğru yapardı,
Haqq-ədalət öz yerini tapardı.
Elə rəhməti də onlar apardı,
Mizan idi kəlmə - söz kişilərdə.

Saxlamadıq kişilərin hörmətin,
Kəsdi ruzumuzun haqq bərəkətin.
Şəhbazi, güzəran çox olub çətin,
Gedib halal çörək-duz kişilərdə.

# SÖZ BELƏ OLDU

Səni  görən  kimi  özümdən oldum,
Qaşım  belə   oldu, göz  belə  oldu.
Heç belə yazmazdım, bilmirəm niyə,
Şeir  belə  oldu,  söz belə  oldu.

Aşkar etdim harayımı, səsimi,
Əsdi, əndamımın laxladı himi.
Alışdı dəmirçi kürəsi kimi,
Alov belə oldu, köz belə oldu.

Yazıq Şəhbazini gətirdin dada,
Olmuşam əlindən düşgün **üftada**(1).
Əzraildən betər ay mələkzada,
Sən ki can üzənsən, üz, belə oldu.

1—üftada = yazıx

# SÖZƏ HƏSRƏTƏM

Aç şəkər dilləri, bal dodaqları,
Həsrətəm, bir şirin sözə həsrətəm.
Yaşmağın altında pünhan etdiyin
Yanağa həsrətəm, üzə həsrətəm.

Eşq atəşin qalanıbdı canıma,
Od vurub cismimə, xanimanıma,
Utanıram, necə deyim xanıma,
O qələm qaşlara, gözə həsrətəm.

Şəhbazi həsrətdi bircə görüşə,
Lalə yanaqlara, dahana, dişə.
O əzəl sallanıb keçən yerişə,
Baxışa, gülüşə, naza həsrətəm.

# SAZIM

Tarixim, keçmişim, hayım-harayım,
Sərhədlər üstünün "poludu"(1)sazım.
İnsanlıq zirvəsi, həqiqət səsi,
Haqqın, ədalətin yoludu sazım.

Saz səsinə zaman durur dayanır,
Əsli saçın yolur, Kərəm də yanır.
Araz  aşıb-daşır, Kür çimçalanır,
Bir bax, nə hikmətlə doludur sazım.

Saz kimi bir elçi, bir bayraq hanı?
Yaşayıb, yaşadır Azərbaycanı.
Şəhbazi, Nəsimi, "Dəmirlər" (2)qanı,
Babəkin kəsilmiş qoludur sazım.

1- "pol" körpü

2- "Dəmirlər" Aşıq dəmir keçmişdə zalım bir hökmüdar bu aşığın gürəyində səmavar qaynatdırb

3-

# QURBANIYAM MƏN

Yalançi  saxtakar  Zəncanlı (H – C ),
Əhdin, düz ilqarın qurbanıyam mən.
Sən olmasan igidlərə zaval yox,
Sənsiz hər anların qurbanıyam mən.

Bilirsən fikrimdən nə gəldi keçdi?
Bilməsən, ömrünün hamısi heçdi.
Hər kəsin  əməli önündə borcdu,
Düz yol tutanların qurbanıyam mən.

İnsani alnından tanıram, vallah,
Şəhbazinin  səhvi olmaz, inşallah.
Qulaqına oxunmuyub bismillah,
Dindar sənətkarın qurbanıyam mən.

# DEHQAN FƏDAKAR

Dehqani-fədakar bir iş gördü ki,
Tarix boyu ölməz oldu  xacəvi.
Düşdü dastanlara, dəbistanlara,
Dirilik qazandı, qaldı xacəvi.

Gördü dağ  tökülüb, yol-yolağ daşdı,
Min xəyala daldı, fikri qarışdı.
Pencəyə  neft  tökdü, yandırdı qaşdı,
Qatarın qabağın aldı xacəvi.

Rizəli dərs verdi bütün cahana,
Dünyanı cəlb etdi Azərbaycana.
Şəhbazi, nə yazım belə insana,
Məktəbi yadıma saldı xacəvi.

## XANLARIN

Hər bir cəsarətin, malın-dövlətin,
Yaraşığın  kəndli verib xanların.
Dəyərin-dəymәzin, şanın-şöhrətin,
Çalpapağın kəndli verib xanların.

Dünən abad  edib kəndin obasın,
Bu gün  dolandırır o kərxanasın.
Nardan  şərabını,  qoyun  xamasın,
Qab-qacağın  kəndli  verib xanların.

Taleh vurub, baxt gətirib çilovun,
Ötürüb  köhlənin,  çəkmir cilovun.
Ay Şəhbazi, bozartmasın, pilovun,
Balın, yağın kəndli verib xanların.

# DİNLƏYİN

Koroğlu  qeyrətli Türk övladları,
Şimşək  səsli  aşıqları dinləyin.
Bir-bir  çalıb  oxusunlar  ozanlar,
Tükənməz  dövləti,  varı dinləyin.

Folklor, dastanlar çərçivəsində,
Baxın aşıqlara saz sinəsində,
Bu xalqın adəti-ənənəsində,
Danışıram dastanları, dinləyin.

Aşıq Səxavətdən  eşit Mirzəni,
Ələsgər kamalli xan Zəlımxanı.
Qudrət Əsədidən Azərbaycanı,
Səttardan da Arazbari dinləyin.

Əbulfəz  xatırlır Hüseyn Cavanı,
Talıb Mahmudunan Əkbər İmranı.
Qəyəbaşli Muxtar Növrəs İmanı,
Şəhbazidən  Kamandarı dinləyin.

# GƏMİLƏR GƏRƏK

Mən-mən deyib, yarımmən də olmayan,
Kamil iş daliycan kamil ər gərək.
İgidi xətərdən köhlən qurtarar,
Ağır fərmaşlara qoca nər gərək.

Səndən başçı olmaz, çəkil dur kənar,
El öz sərkərdəsin axtarar tapar.
Tərlan olan yerdə dolanmasın sar,
Meydandarlıq edən pürhünər gərək.

Şəhbazidən yan ol təbi duranda,
Dağlar püsgürəndə, daş qaldıranda,
Dəniz ləpə döyüb dalğa vuranda,
Çəkib ləngər sala gəmilər gərək.

# A YOLDAŞ

Ömrümün yarpağı bir-bir üzülür,
Qopur düşür, xəzan olur, ay yoldaş.
Dənə -dənə bəyaz qonur saçıma,
Qədd bükülüb kaman olur, ay yoldaş.

Atalar sözünü tutdum sərsəri,
İndi ki bilmişəm yoxdu əsəri.
Saçıma qar-qırov düşəndən bəri,
Can-can deyən yar yan olur, ay yoldaş.

Şəhbazini nə tez tapdın, a yağı,
Saraldı gülləri, soldu yarpağı.
Yadıma düşəndə cavanlıq çağı,
Bağrım başı şan-şan olur, ay yoldaş.

# BİRİ İNSAN OLUR

O xilqətdən bəri a dəli könlüm,
Hərə də bir xislət, bir nişan olur.
Bir qandan, bir süddən yarananların,
Biri şər yaradan, biri insan olur.

Adam var, ev tikən, yapıb yaradan,
Sülhün zirvəsinə olub nərdivan.
Adam, var şər yaxar keçsən yanından,
Röyada görəndə **hərasan**(1) olur .

Kimisi can atır alçaq niyyətə,
Kimisi qoşulur əbədiyyətə.
Şəhbazi, nə yazım o bədtinyətə,
Yaradan hamıya mehriban olur.

1-- hərasan = əcayib yuxu – qorxulu yuxu görüb ayılma

# ZƏLİMXAN



Xalqımın şairi ulu Zəlimxan,
Könlümün sarayın aldı sözlərin.
Gəraylın Vaqifi, qoşman Vurğunu,
Səhəndi yadıma saldı sözlərin.

Hər şeirinin bir misrası bir ayə,
Karvan-karvan köçlənirlər minayə,
Çıxdı kitablardan qalxdı sinayə,
İnci tək düzüldü, qaldı sözlərin.

Aşıq  Şəhbaziyəm, bilirəm mən də,
Tanrım ilhamını cəm edib səndə.
Bütün qayaların zirvələrində,
Hək etməli bir misaldı sözlərin.

# QADASIN ALIM

Kişi var, anadan mərd doğulubdu,
Belə mərdanənin qadasın alım.
Mərd ana olmasa, mərd kişi olmaz,
Belə mərd ananın qadasın alım.

Mərdlərin evindən süfrə bükülməz,
Evi gəl-get olar, ayaq kəsilməz.
Tikəni bilməyən dağı da bilməz,
Duz-çörək qananın qadasın alım.

Dostluq başa vurmaz ilqarın danan,
Nə ona bel bağla, nə də arxalan.
Ay Şəhbazi, mərdin başı ucaldan
İsmətli cananın qadasın alım.

# AY KÖÇƏRİLƏR

Dünya qalasıdı, insan köçəri,
**Kim**(1) vaxtsız getməsin, ay köçərilər.
Amansız, insafsız bu qoca dünya,
Yaxazi tutmasın, ay köçərilər.

Fisunkardı hər torpağı, hər daşı,
Bilinmir tarixi, neçədi yaşı.
Bu qarı qumarbaz, bu leylacbaşı,
Sizi aldatmasın, ay köçərilər.

Şəhbazi, qoy bilsin bəy də, nökər də,
Dünya apardığın gətirmir bir də.
Elə bir yol tutun qısa ömürdə,
Zəhmətniz itməsin, ay köçərilər.

1-- Kim = heç kimsə

# MƏNİ

Tifilikən nələr çəkdim dünyada,
Nökərlər cərginə atdılar məni.
Sabah açılandan şər qarışana
Beş quru çörəyə satdılar məni.

Külə göndərildim **kolada**(1) getdim,
Bəli, qurban dedim **dollada**(2) getdim.
Eniş-yoxuş aşdım, dolayda getdim,
Piyada qoydular atlılar məni.

Pullular puluyla döydü sərimdən,
Taziyanə zol çıxardı dərimdən.
Şəhbaziyəm, heç dinmədim **şərimdən**(3),
Bilməzə, nadana qatdılar məni.

1—Kol = bitgi
2—Dolla = əyilə- əyilə getmək
3-- şərimdən = abırımdan = utancılığımdan

## AŞIQ ŞƏHBAZİNİN HƏRBƏ - ZORBASİNA CAVAB



# ŞAİR HACI LOĞMAN GÖYÇƏLİ

### LOĞMANA GƏLSİN

Aşıxlıq elmindən dəm vuran aşıq,
Ələsgərə çatmaz, İmana gəlsin.
Sənətin ocağı Göyçədi, ustad,
Göyçəli neyniyir İrana gəlsin?

Xoşa gəlməsə də söylərəm düzü,
Qana öz eybini insanın özü.
Hörmətdən salanlar sənəti, sözü,
Qoysun sazı yerə, vicdana gəlsin.

Çıxıbdır çox təzə aşıq, ay ustad,
Neçə yuyulmamış qaşıq, ay ustad,
Təzə nə yazıbsan aşıq, ay ustad,
Göndər şair Hacı Loğmana gəlsin

AŞIQ ŞƏHBAZİYƏ CAVAB

# ŞAİR VAQIF HİCRAN TOVUZLU




## GƏLLƏM

Dürr seçən Sərrafam Aşıq Şəhbazi,
Gəlləm dəvətinə şahanə, gəlləm.
Yığvalım gətirsə, iş taraz olsa,
Düşmərəm şübhəyə gümana gəlləm.

Atalar sözü var deyiblər haşa,
Sənətdə nadanlar çıxmıyıb başa,
Saxlasan könlündə mənə bir guşa,
Can qurban eyləyib qanana gəlləm.

"Vaqif Hicran" dost yolunda var olar,
Dərdin azaltmağa səbəbkar olar,
Ustad Qış fəslidi yollar qar olar,
Istəsən ki düşəm dumana! gəlləm.

ŞAİR VAQIF HİCRANA CAVAB



# AŞIQ SƏLCUQ ŞƏHBAZİ

## NƏ YAZIM USTAD

“Vaqıf hicran”, gözəl yazıb yaradan,
Dostuma nə deyim nə yazım ustad.
O üç bənd yazdığım qara –qorxuda,
Nadandı məqsədim, qərəzim ustad?

Sən mənim sazımsan – sözümsən axı,
Özümdən irəli özümsən axı,
Danışan dilimsən gözümsən axı,
Hay- haray nəfəsim avazım ustad.

Şəhbazinin müdrük sayın sözlərin.
Bu sənətdə borcu nədir bizlərin,
Ay vaqıf istədim, xəbərsizlərin,
Bir qulağn bursun bu sazım ustad.

HƏRBƏ – ZORBUYA CAVAB

# ŞAİR VAQİF HİCRAN TOVUZLU




## ÜNVANIN İTƏR

Çalxalanma dağdan axan çay kimi,
Qovuşar ümmana ünvanın itər!
Açaram önündə söz mədənimi,
Yazıb yaratmağa gümanın itər!

"Quran"dan bəzərəm süfrəmi hər an,
Dörd gövhər içində itib batarsan,
Dərdlərsən, tapılmaz dərdinə dərman,
Sazın susub qalar, kamanın itər!

Ay Hicran qartalın dağdır məskəni,
Dərd sevir deyəsən dərdi çəkəni,
Qananla yarı böl hər bir tikəni,
Yoxsa Allah sevməz imanın itər!!

## QARA- QORXUYA CAVAB

# ŞAİR SƏLMAN QAZİ



ŞAİR SƏLMAN QAZI

### DANIŞ

əssəlamunəleyk aşıq şəhbazi,
azını bilirəm çoxundan danış.
Yoxsa sənətindən çox razısan sən,
Sən mənə atdığın oxundan danış.

Qartaldan ucada uçan quşda var,
Zumurrud, simorğdu tutubdu qərar,
Şair qarşısında qalarsan naçar,
Yapışar buraxmaz yəxəndan nanış.

Xoşum gəlir sənətindən özündən,
Elə yazkı xoşum gəlsin sözundan,
Mən qorxmaram alovundan közundan,
Səlmana gürlayıb çaxandan danış.

# QARA - QORXU "DANIŞ"



Şair Salman, bax sözünün gücünə,
Gəlməyə varındı bir imkan, danış.
Çoxların yuxudan oyatmışam mən,
Sən yuxu görürsən, yuxudan danış.

Sənətdə qartalam, bilirsənmi sən?
Neçə şairləri bağlamışam mən?
Sənə rəhmim gəlir, keçirəm üzdən,
Göstər sənətindən bir nişan, danış.

Şəhbazinin sözün salma gümana,
Nöqtəni, vergülü atıbsan yana.
Adasan, özünü qatma ümmana,
Sən hələ uşaqsan, get uzan danış.

## HƏRBƏ - ZORBANIN CAVABI



## DANIŞ

Hərbə - zorba demə, aşıq Şahbazi,
Dönərəm tufana – borana, gəlləm.
Sənət meydanında coşub, daşaram,
Salaram sizləri gümana, gəlləm!

Sənətində ağır otur, batman gəl,
Mənəm – mənəm desən, taparsan əngəl,
Heç kəsə çəp baxma, hər kəslə tən gəl,
Yoxsa , dərs deməyə İrana gəlləm!

İmtahan çətindi, çəkə bilməzsən,
Aşıqsan, şairlə əkə bilməzsən,
“Salman”ın qolunu bükə bilməzsən,
Keçərəm Arazı, o yana gəlləm!

HƏRBƏ- ZORBALAR



# AŞIQ SƏLCUQ ŞƏHBAZİ

## MEYDANA GƏLSİN

O taylı-bu taylı Azərbaycanda,
Aşığa toxunan meydana gəlsin.
Havacat duyursa, çala bilirsə,
Arxayındı sözə, dastana, gəlsin.

Haracan gedəcək bu sənət belə,
O ucuz tutulur lap gələ-gələ.
Çox nadan, sənətsiz saz alıb ələ,
İmtahan verməyə İrana gəlsin.

Çəkim imtahana, salım dərinə,
Atəş salım qanadına, pərinə.
Şəhbazi, bir tırış gəlsin sərinə,
Qayıdıb evinə, divana gəlsin.

# QAĞA

Hamı çala bilməz zamanın sazın,
Hər telində minbir oyun var, qağa.
Bəstəkarı bəlli, çalanı bəlli,
Dinliyəni olub günahkar, qağa.

Nə  satırsa satsın, nə alır alsın,
Sən açma bu sirri, qoy bağlı qalsın.
Bax,  necə kökləyib, elə də  çalsın,
Dindirsən küsəcək bəstəkar, qağa.

Şəhbazi, ələnib keçdim ələkdən,
Çox zaval ğörmüşəm fitnə kələkdən.
Beybəfa dünyadan çərxi-fələkdən,
Görmədim sədaqət, etibar, qağa.

# TÜFƏNG

Mən də tüfəng alıb çıxdım oylağa,
Mənim ovum, hara səninki hara?!
Mən saçma yerinə doldurdum dəni,
Atdım qanadları sınan quşlara,
Mənim ovum hara, səninki hara?!

Mən tüfəng aldım ki, səyyad almasın,
Silah satanlarda güllə qalmasın,
Quşlar  havalansın,  lələk salmasın.
Tüfəng  almadım ki, çıxam şikara,
Mənim ovum hara, səninki hara?!

Bezaram, bezaram çaxmaq çaxannan,
Maşa tərpədəndən,  qıya baxannan.
Ay Şəhbazi, bax, bu Tüfəng  çıxanan,
Çox qəlbi kövrəklər gəliblər zara,
Mənim ovum hara, səninki hara?!

# GƏLDİ, QAYITDI

Dün gecə anamı yuxumda gördüm,
Bir an **veranama**(1) gəldi, qayıtdı.
Məzardan beş dəyqə vaxt almışdı o,
Özün dərdi-sərə saldı, qayıtdı.

Aşmışdı dağlardan, keçmişdi daşdan,
Yıxılıb durmuşdu, üstü-başı qan.
Çaldı qapımızı ta mən duruncan,
Vaxt qapıda tamam oldu, qayıtdı.

O zaman qalxdım ki, döndü küçəni,
Qonşumdan soruşdum gəlib-gedəni.
Dedi, ananıydı, soruşdu səni,
Şəhbazi, qapını çaldı, qayıtdı.

1- verana(1) dağılmış – uçub dağılmış öv

# O YARA MƏNİ

Həllalı-müşgülat, fatehi-xeybər,
Gəl qoyma sərgərdan, avara məni.
Tut əlimdən qaldır, ey Şahi-Nəcəf,
Salma nəzərindən kanara məni.

Batıbdı günəşim, sönübdü şəmim,
Yol azıb karvanım, ğərq olub gəmim.
Aləmi sözlərim, özümü qəmim,
Ah çəksəm, yandırar dübara məni.

Yazıq Şəhbaziyəm, gəl yetiş dada,
Nabələd səhrada düşmüşəm oda.
Nə  sahil görünür, nə də bir ada,
Qoyma bu dalğalar apara məni.

# TƏCNİS

Yığılıb aşıqlar, söz ustadları,
Təcnisdən, cinasdan nə yaza-yazdı.
Sözlər sinələrdə dalğa vuranda,
Baxıb ehtiyaca, nə yaza yazdı.

Ağsaqqalıq biliyədi, yaşadı,
Xalq şairi yazar, xalqı yaşadı.
Şair də var, təbiətdə yaşadı,
Amma nə payıza, nə yaza yazdı.

Aşıq qardaş, sözdə çalxan, sözdə ərin,
Parçalama Şəhbazinin sözdərin.
Kəlmə dərin, məna dərin, söz dərin,
Naşıya dedilər "nə" yaz, "a" yazdı.

# DASTAN OĞLUYAM

Aşıqlığın keşiyində durmuşam,
Alışıb oduna yanan oğluyam.
Bu qoruğa təpiləni talaram,
Halay pozan, Top dağıdan oğluyam.

Mən aşığam, saz atamdı, söz anam,
Saz sinəmdə, söz dilimdə nişanam.
Təpədən-dırnağa Azərbaycanam,
Fəxr edirəm, Azərbaycan oğluyam.

Dədə Qorqud şöhrətimdi, şanımdı,
Duaları təskinim, dərmanımdı.
Qoruyaram, dastanların canımdı,
Danışıq oğluyam, dastan oğluyam.

Sinə gərrəm laf eyliyən sözünə,
Ölümdüsə, dik baxaram gözünə.
Ayaq qoydum babaların izinə,
Bu karvanda bir bəzirgan oğluyam.

Şəhbaziyəm, Qopuzların himiyəm,
Mizrabıyam, pərdəsiyəm, simiyəm,
Mən Ağ aşıq Allahverdi kimiyəm,
“Şah yuxu” havasın çalan oğluyam.

# QOŞMALAR



# ŞƏRAFƏTDƏN DANIŞAN

Şair Salman,hədsiz olub yerdə-göydən danışan,
Haşa üzdən, mərifətsiz mərifətdən danışan.
Kan tanımaz, Məkan bilməz, Laməkandan xərcliyər,
Qram-qram iman satıb, şərafətdən danışan.

Necə deyim mən necəyəm, sözümə şəkk edirəm,
Görə-görə bəz əməli, gözümə şəkk edirəm.
Desəm düzəm, inanmıram, özümə şəkk edirəm,
Həqiqətə əməl etmir, həqiqətdən danışan.

Otuz ildi dərs verirəm, ol kitabul-Kərimi,
İki Mələk sağ-solumda yazır xeyir-şərimi.
Nə bir pula, nə məqama satmaram hünərimi,
Əzəl Qorqud babam olub bu sənətdən danışan.

Şəhbazi, heç avand da yox, tərsə dolandı dünya,
Nə sazlıdı, nə sözlüdü, köhnə palandı dünya,
Mən də bir əlli-altmış il dedim yalandı dünya,
Lağa qoyub baş buladı mal-dövlətdən danışan.

## OLSUN

Sazı hörmətdən salanın, sonu hörmətsiz olsun.
əli bom-boş cibi pulsuz, vardan dövlətsiz olsun.
Hökmürandı-padşahdı, güvənməsin taxtına,
Taxta çıxardan sahabkar, onu qudrətsiz olsun.

Niyyətində əsas tutub, məsələni silməsin,
Yerli- birli xanmanlı, heç vaxt üzü gülməsin.
Elə yerdən qılınc dəysin , heç səbəbin bilməsin,
Hardan sınıb- hardan çıxıb, sirdən- sifətsiz olsun.

Şəhbaziyəm mən bilirəm sazda olan qudrəti,
O Türklərin Bayrağıdı, İtihadı-Vəhdəti,
Sazda ana laylası var, ana- bacı isməti,
O varlığa kəc baxanı, tanrım ismətsiz olsun.

# ŞAHA MEHMAN QALMIŞAM

Dün yuxuda tələb olan hökmə rəvan olmuşam,
Üzərimə **dər**(1) açılıb, Şaha mehman qalmışam.
Usta-şagird məqamında, oturmuşuq diz-dizə,
Öyrədibdi üç gəraylı, bir divani, çalmışam.

Gərəkdi bu dörd havadan, ustadımdan ad qala,
Murad haqdan hasil ola, əsaslı əsnad qala.
Yahu dedim, haqq eşitdi, o qoymaz irad qala,
Sirati saflar  yolu ilə, düz ərkana dalmışam.

Şəhbazinin divanisi, gəraylısı haqq divan,
Mürşüdümün imzasilə, bədirlənmiş ay nişan.
Xeyir görsün, hər dördünü həm çalan, həm çalmayan,
Bu dördlərdə əbcədinən, xalı-xala salmışam.

dər(1) qapı

# ŞAH GƏLİB SULTAN GEDİB

Bu dünyaya milyon-milyon şah gəlib, sultan gedib,
Əllərində olan qüdrət, şöhrət gedib, şan gedib.
Neçə İsgəndər əylənib, mənəm deyib dünyada,
Cəmşid kimi padişahlar, xeyli Süleyman gedib.

Çox olubdu bu dünyanın Nəmrudu, Firovnları,
Yaradana ox atıblar, üstün vurmayıb Tanrı.
Bir dəfə də mat olmayıb, kiş verib şahmatları,
Son mənzilə çala- çala lüt gedib, üryan gedib.

Hökümdarlar gəlib-gedib, kəllədən minarəsi,
Günçıxandan günbatana qoşunu, sərkərdəsi,
Veran olub tacı-taxtı, yoxdu bir nişanəsi,
Şəhbazi də belə görüb, yazıb bir divan, gedib.

# İNSANSAN ƏGƏR

Gör babalar nələr demiş, arif insansan əgər,
Yerini bil, mənəm demə, az-çox qanansan əgər.
Əgər zaman dəyişilib, zamanla getməlisən,
Hansı sultan xan oğlusan, hansı çobansan əgər.

Bilməlisən ömür boyu nə imkanlar var sənə,
Yaradan azad yaradıb, verib ixtiyar sənə.
Yamanlığa gəlməyibsən, yaxşılıq çatar sənə,
Vaxt keçəcək bərq kimi durub dayansan əgər.

Yaşamağın sirri nədir, bir-bir öyrənməlisən,
Mənəm desən, öyrənməsən, divanəsən, dəlisən.
Gündə bir söz öyrənməsən yaddaşın gülləlisən,
Şəhbazidən incimezsən, özünə yansan əgər.

# NƏ VAR Kİ

Yar-yoldaşı sahmanla seç, iki üzə nə var ki,
Ara, axtar igid dost tap, şeyitbaza nə var ki.
Sən evində, mən evimdə ayıq-sayıq dolansaq,
Baş şəhərdə baş kəsirlər, axı, bizə nə var ki.

Bəşərin düzlüyündədi hər ləzzəti, hər tamı,
Unutma vicdanı, dostum, bir səhər, bir axşamı.
Hər küçədə, hər bazarda, yoxluyallar adamı,
Sanma ki, xalq yuxudadı, ayıq gözə nə var ki.

Adım Səlcuq Şəhbazidi, çox mətləbə əzbərəm,
Ələsgərə tay gəlmişəm, Qurbaniyə qədərəm,
Sözlərimdə həqiqət var, nə hədərəm- pədərəm,
Ordan-burdan addax-buddax, yüngül sözə nə var ki.

# KÖMƏK

Ey bir Allah, səndən qeyri yoxdu yaradan, kömək,
Tapdayacaq başımızdan, versə, bir insan kömək.
Hər bir kəsin öz dini var, öz məsləki, öz yolu,
Mən həqiqət aşığıyam, alaram Haqdan kömək.

Bir arzum var, ulu Tanrım, gedəm asimanlara,
Səndən başqa kim veribdi hökmü süleymanlara.
Həlak olsam ataşlərə, qərq olsam ümmanlara,
İstəmərəm yaranmışdan sultandan, xandan kömək.

Yer üzündə tamahım, yox yahu -yahu acıyam,
Baş əymişəm varlığına, nə versə alacıym.
Nə Mənsuram, nə də Şəmsəm, bir **üftadə**(1) xocayam,
Bu mən Səlcuq Şəhbaziyə qadiri-sübhan kömək.

1- üftadə(1) düşgün

# DİVAN LAR




AŞIQ SƏLCUQ ŞƏHBAZİ – AŞIQ SƏTTAR BABAİ

Mən aşığam, saz atamdı, söz anam,
Saz sinəmdə, söz dilimdə nişanam.
Təpədən-dırnağa Azərbaycanam,
Fəxr edirəm, Azərbaycan oğluyam.

Saz tarixim, keçmişim, etibarımdı, insanlıq zirvəsi, həqiqət səsi, haqqın, ədalətin yoludu, hikmətlə doludu deyən ustad aşıq qürurla deyir ki:

Saz kimi bir elçi, bir bayraq hanı?
Yaşayıb, yaşadır Azərbaycanı!

Hər zaman ustad ədəb-ərkanını, aşıqlığın qayda-qanununu qoruyub saxlayan S.Şəhbazi oxuculara təqdim olunan şeirlər kitabında da buna əməl edir. Kitab divanilərlə başlayır, qoşma, təcnis, gəraylı ilə davam edir, müxəmməslə bitir. Bəli, aşıqlıqda ustad yolunu gözləyən, ənənəni qoruyan Səlcuq Şəhbazi şeir yaradıcılığında da buna əməl edir. Və sübut edir ki, sözün əsl mənasında klassik ustad aşıqlarımızın yolunu ləyaqətlə davam etdirir, aşıq şeirinin müxtəlif formalarında şeir yaza bilir.

İnanıram ki, ustad aşıq kimi milyonların rəğbətini qazanan S.Şəhbazi bu kitabı ilə də könülləri fəth edəcək, oxucu məhəbbəti qazanacaq.

Bu gün Aşıq Şəhbazi yaradıcılığının çox məhsuldar dövrünü yaşayır. Heç şübhəsiz, istər ifaçılıqda, havacatda, istərsə də şeir yaradıcılığında bundan sonra da öz sözünü deyəcək, bənzərsiz ifaları, yeni-yeni şeirləri ilə bizləri çox sevindirəcək.

Ustad sənətkarımıza yaradıcılığında uğurlar, möhkəm cansağlığı, və saz ömür arzulayıram.

# ÖN SÖZ

## Musa NƏBİOĞLU



Azərbaycan Aşıqlar Birliyinin katibi,
"Ozan dünyası" jurnalının baş redaktoru

Səlcuq Şəhbazini ustad aşıq kimi tanısam da, düzü, şeir yaradıcılığı ilə o qədər də yaxından tanış deyildim. Daha doğrusu, indiyədək bir neçə şeirini oxumuşdum. Bu kitabın əlyazmasını oxuyandan sonra isə yaradıcı aşıq kimi ona rəğbətim daha da artdı. Kimdir Aşıq Səlcuq Şəhbazi? Bu sualın cavabını elə onun yaradıcılığnda tapmaq mümkündür. Aşığın özünün dediyi kimi, milyon-milyon şahın, sultanın gəlib-getdiyi bu qoca dünyada aşıqlığın keşiyində durur. Dədə Qorqud şöhrətim, şanımdı deyən aşıq, onun dualarını özünə dərman sayır, dastanları canımdı deyir. "Ayaq qoydum babaların izinə", - deyib sənət adlı böyük bir yolun yolçusu və "təpədən dırnağa Azərbaycan" olan Şəhbazi qopuzların himi, mizrabı, pərdəsi və simidir:

# KİTABIN İÇİNDƏKİLƏR


| Səfhə | əsərin adı | Səfhə | əsərin adı | Səfhə | əsərin adı |
|---|---|---|---|---|---|
| 188 | ÖN SÖZ | 151 | HƏSRƏTƏM | 112 | DÜNYA |
| 186 | **DİVANİLƏR** | 150 | SÖZ BELƏ OLDU | 111 | OLSUN |
| 185 | KÖMƏK | 149 | KİŞİLƏRDƏ | 110 | ÜRƏYİMDƏ |
| 184 | NƏ VAR Kİ | 148 | ALLAH, ALLAH | 119 | DARIXMIŞAM |
| 183 | İNSANSAN ƏGƏR | 147 | QAPI VAR | 108 | OLUM |
| 182 | SULTAN GƏLİB | 146 | QURBAN | 107 | QARAGÖZ |
| 181 | QALMIŞAM | 145 | DİYƏCƏKDİ | 106 | GƏTİRƏR |
| 180 | OLSUN | 144 | NƏ TƏLƏSİRSƏN | 105 | DÜZ İTİRDİZ |
| 179 | ŞƏKK EDİRƏM | 143 | GƏLİBDİ | 104 | GÖNDƏRİBDİ |
| 178 | **QOŞMALAR** | 142 | CEYRAN | 103 | HAKİMLƏR |
| 177 | OĞLUYAM | 141 | DÖRDÜ NƏ | 102 | XACƏVİ |
| 176 | TƏCNİS | 139 | HƏSƏN MİRZƏ | 101 | PARA DÜNYA |
| 175 | O YARA MƏNİ | 138 | YAŞAMIŞAM | 100 | AD EYLƏDİM |
| 174 | GƏLDİ-QAYITDI | 137 | BEŞ GƏLƏR | 99 | **MUXƏMMƏS** |
| 173 | TÜFƏNG | 136 | DİLBƏRİM | 98 | QOTAZ BƏYİM |
| 172 | QAĞA | 135 | ANA QOCALIR | 97 | BİZİM |
| 171 | HƏRBƏ- ZORBA | 134 | ANA | | |
| 170 | CAVAB SƏLMAB | 133 | YARAŞMIR | | |
| 169 | CAVAB ŞƏHBAZİ | 132 | SAĞLIĞINA | | |
| 168 | SƏLMAN QAZİ | 131 | HARDADI | | |
| 167 | CAVAB VAQİF-1 | 130 | MƏNDƏN | | |
| 166 | CAVAB ŞƏHBAZİ | 129 | YAŞI VAR | | |
| 165 | VAQF HCRAN-2 | 128 | QIFILBƏND | | |
| 164 | HACI LOĞMAN | 127 | QARIŞDI | | |
| 163 | MƏNİ | 126 | KÖRPƏLƏR | | |
| 162 | AY KÖÇƏRİLƏR | 125 | OLAYDI | | |
| 161 | QADASIN ALIM | 124 | VAR | | |
| 160 | ZƏLİMXAN | 123 | GÖTÜRRƏM | | |
| 159 | İNSAN OLUR | 122 | O YERLƏRDƏDİ | | |
| 158 | A YOLDAŞ | 121 | GƏLSİN | | |
| 157 | GƏRƏK | 120 | ZƏLİMXAN | | |
| 156 | DİNLƏYİN | 119 | QAFİYƏ | | |
| 155 | XANLARIN | 118 | ŞAİRƏ QIZ | | |
| 154 | FƏDAKAR | 117 | NAŞI YANDIRIB | | |
| 153 | QURBANIYAM | 116 | DEYİŞMƏ | | |
| 152 | SAZIM | 114 | **GƏRAYLILAR** | | |
| | | 113 | AXTARIRAM | | |

# AŞIQ GÖRDÜYÜN ÇƏĞIRAR

## MÜƏLLİF
## AŞIQ
## SƏLCUQ ŞƏHBAZİ

KİTABIN ADI

AŞIQ GÖRDÜYÜN ÇƏĞIRAR

MOZU: AŞIQ ŞEİRİ
SƏYFƏ: 190
NAZİRLİK NÜMRƏSİ:
............................................/
MİLLİ KİTABXANA NÜMRƏSİ:
....................................................
QİMƏT:20000 TÜMƏN
www. Ashiqshahbazi.blogfa.com
E- mail:ashiq_shahbazi@yahoo.com



# AŞIQ GÖRDÜYÜN ÇAĞIRAR

AŞIQ

SƏLCUQ ŞƏHBAZİ